HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 36 (930) ■ 26 sentyabr 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Prezident İlham Əliyev: «Azərbaycan dünya xəritəsində bir uğur nümunəsidir»

**Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xaricdən dəvət olunmuş çoxsaylı qonaqlar, millət vəkilləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.**



İclasda nitq söyləyən Prezident İlham Əliyev Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə təbriklərini çatdırıb. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını tarixi hadisə adlandıran dövlətimizin başçısı xalqımızın Şərqdə ilk demokratik respublikanın yaradılması ilə fəxr etdiyini bildirib. O dövrdə bir sıra dövlət atributlarının təsis edildiyini deyən Prezident İlham Əliyev Azərbaycan dövlətinin Cümhuriyyətin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirdiyini vurğulayıb, bu il «Cümhuriyyət İli» çərçivəsində dövlət səviyyəsində bir sıra tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

1991-ci ildə bir əsrdə ikinci dəfə müstəqilliyinə qovuşan Azərbaycanda ilk illərdə vəziyyətin acınacaqlı olduğunu, ölkəmizin çətin sınaqlarla üz-üzə qaldığını deyən dövlətimizin başçısı o ağır vaxtlarda xalqın müdriklik göstərərək Heydər Əliyevi hakimiyyətə dəvət etdiyini, onun respublikaya rəhbərliyindən sonra ölkədə önəmli addımların atıldığını, Azərbaycanın tədricən ağır vəziyyətdən çıxdığını bildirib.

«Bugünkü inkişafımızda Azərbaycan parlamentinin də payı var», - deyən Prezident İlham Əliyev Milli Məclisin müstəqilliyimizi möhkəmləndirdiyini, ölkəmizin inkişafına öz töhfəsini verdiyini vurğulayıb. Burada qəbul olunan qanunların həyatımızın bütün sahələrini əhatə etdiyini və ölkədə qanunvericilik bazasının ən yüksək meyarlara cavab verdiyini deyən dövlətimizin başçısı qeyd edib ki, parlament çoxpartiyalı sistemin təkmilləşdirilməsində önəmli rol oynayıb və milli maraqlar məsələsində deputatlarımız bir nöqtəyə vurur, vətənpərvərlik göstərərək dövlətin maraqlarını beynəlxalq səviyyədə uğurla müdafiə edirlər. Deputatlarımızın beynəlxalq təşkilatlar çərçivəsində də fəal iş apardığını, Azərbaycan reallıqlarını dünyaya çatdırdığını deyən Prezident İlham Əliyev vurğulayıb ki, onların fəaliyyətinin əsas istiqamətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin çatdırılması təşkil edir və bu işdə son illərdə bir sıra uğurlara nail olunub.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışarkən dövlətimizin başçısı qeyd edib ki, işğal olunmuş torpaqlarda bütün infrastruktur dağıdılıb, milli sərvətimiz talan olunub, xalqımıza qarşı hərbi cinayət - Xocalı soyqırımı törədilib. Ermənistan münaqişənin həlli ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul olunan qətnamələrə məhəl qoymur, işğalçılıq siyasətini davam etdirir. Baxmayaraq ki, münaqişənin yeganə həlli yolu Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasından keçir. «Bununla bağlı Ermənistanın yeni rəhbərliyi öz siyasətində ciddi dəyişikliklər etməlidir», - deyən Prezident İlham Əliyev bir daha bəyan edib ki, Azərbaycan öz prinsipial mövqeyindən geri dönməyəcək. Çünki Dağlıq Qarabağ əzəli və tarixi Azərbaycan torpağıdır və o, respublikamızın suverenliyindən kənarda heç bir status almayacaq.

> “Azərbaycan parlamenti həm Heydər Əliyevin dövründə, həm də bu gün öz fəaliyyəti ilə ölkəmizin müstəqilliyini möhkəmləndirir, sürətli inkişafının təmin olunmasına öz töhfəsini verir

Bu gün Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihənin reallaşdırılmasının mümkün olmadığını, getdikcə ölkəmizin bütün sahələrdə gücünün artdığını, respublikamızın beynəlxalq səviyyədə, qonşu dövlətlərlə uğurlu əlaqələr qurduğunu deyən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, son 15 ildə iqtisadiyyatımız 3,2 dəfə artıb, Dünya İqtisadi Forumunun iqtisadiyyatın rəqabətqabiliyyətlilik hesabatına görə Azərbaycan dünya miqyasında 35-ci, inkişaf edən ölkələr arasında inklüziv inkişaf indeksinə görə 3-cü yerdə qərarlaşıb. Beynəlxalq reytinqlərə görə Azərbaycan Ordusu dünyada ən güclü 50 ordu sırasındadır. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən enerji və nəqliyyat layihələrinin önəmini vurğulayan, ölkəmizin dünyada təhlükəsizliyə mühüm töhfə verdiyini, respublikamızın multikulturalizmin mərkəzlərindən birinə çevrildiyini deyən Prezident İlham Əliyev bundan sonra da doğma Vətənimizin inkişafı ilə bağlı tədbirlərin görüləcəyini söyləyib.

Bu gün Azərbaycanın dünya xəritəsində bir uğur nümunəsi olduğunu, ölkəmizin tam müstəqil siyasət yürütdüyünü deyən dövlətimizin başçısı dövlətimizin öz milli maraqlarını tam təmin etdiyini və milli parlamentin bu işdə mühüm rol oynadığını diqqətə çatdırıb.

# Dünyanın tanınmış şirkətləri «ADEX-2018» sərgisində...

Sentyabrın 25-də Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzində açılan «ADEX-2018» üçüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisi ilə tanış olub. Dünyanın 29 ölkəsini təmsil edən sərgi 224 şirkəti bir araya gətirib. Sərginin iştirakçıları olan bir sıra ölkələr əvvəlki illərlə müqayisədə milli ekspozisiyalarının sahəsini böyüdüblər. Təmsil olunan şirkətlərin sayının çoxluğuna görə ilk dördlüyə Türkiyə (41şirkət), Rusiya (25 şirkət), İsrail (14 şirkət) və Belarus (10 şirkət) daxildir. İştirakçıların coğrafiyası Estoniya, Hindistan və Qazaxıstan kimi ölkələrin hesabına genişlənib. Ümumilikdə, ziyarətçi şirkət və qurumlarla birlikdə sərginin coğrafiyası 44 ölkəni əhatə edir. Pavilyonlarda müasir silah və texnikalar nümayiş olunur.




Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki istehsalat birlikləri və zavodlar, o cümlədən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) sərginin fəal iştirakçılarıdır. Burada peşəkarlar ölkənin müdafiə sənayesinin yenilikləri, habelə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mövcud və inkişaf edən potensialı ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər. Bundan başqa, bu il Azərbaycandan «Caspian Ship Building Company», Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, AMEA-nın Yüksək Texnologiyalar Parkı (YTP), «Vitta» elmi-texniki şirkəti və Hərbi Hava Qüvvələrinin silah və zirehli texnikaya texniki baxış üzrə servis mərkəzi sərgidə ilk dəfə iştirak edir.

Sərginin pavilyonları ilə tanış olan dövlətimizin başçısı Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxıb. Müasir silah və texnikanın, habelə milli müdafiə sahəsində Azərbaycanın gücünün və qüdrətinin böyük nümayişinə çevrilən sərgidə son illərdə ölkəmizdə istehsal olunan yüngül və ağır hərbi texnikalar nümayişə çıxarılıb. Atıcı silahlarla təchiz olunan universal «Gürzə» avtomobili, müxtəlif çaplı atıcı silahlar, raket başlıqları, pilotsuz uçuş aparatları və digər hərbi texnikalar sərginin maraq doğuran eksponatları sırasındadır.

«Azərbaycan silahının təkamülü» adı altında çıxış edən Azərbaycan Hərb Tarixi Muzeyi sərgidə qədimdən müasir dövrədək ölkəmizin ərazisində mövcud olmuş dövlətlərin döyüşlərdə istifadə etdikləri texnikalar və silahlar, həmçinin geyim nümunələri də daxil olmaqla 50-dək eksponat nümayiş etdirir.

AMEA-nın Yüksək Texnologiyalar Parkı da sərgidə ilk dəfə iştirak edir. Stenddə hərb sahəsində müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiyayönümlü yeni texnologiyaların hazırlanması, işlənilməsi və təkmilləşdirilməsi məqsədilə görülən işlər nümayiş etdirilir.

Müdafiə Sənayesi Nazirliyi, eləcə də nazirliyin nəzdindəki struktur və zavodlar, o cümlədən Müdafiə Nazirliyi və ANAMA agentliyi sərgidə fəal iştirak edir.

## Rəsmi xronika

■ Prezident İlham Əliyev sentyabrın 21-də Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırımla görüşüb. Dövlətimizin başçısı Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda iştirakına görə Binəli Yıldırıma təşəkkürünü bildirib, qardaş ölkənin parlament sədri kimi ilk rəsmi səfərini Azərbaycana etməsinin önəmini vurğulayıb.

Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyi bildirilib, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olunub.

■ Bakıda, Milli Gimnastika Arenasında cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri, Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer, dövlət və hökumət rəsmiləri iştirak ediblər. Dövlətimizin başçısı dünya çempionatını açıq elan edib, Azərbaycan Respublikasının dövlət himni və Beynəlxalq Cüdo Federasiyasının himni səsləndirilib.

Açılış mərasimi çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer ilə görüşüblər. Görüşdə Azərbaycanın bu qurumun fəal üzvlərindən biri olduğu vurğulanıb, gələcəkdə əməkdaşlığın daha da genişləndiriləcəyinə əminlik ifadə edilib.

Sonra Mehriban Əliyevaya idman aləmində və «Ədalətli oyunlar»ın təbliğində nümunəvi nailiyyətlərinə görə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin «Xüsusi xidmətlərə görə» medalı təqdim olunub.

■ Prezident İlham Əliyev sentyabrın 25-də Xüsusi Olimpiya Komitəsinin sədri Timoti Şriverin başçılıq etdiyi və dünya şöhrətli idmançılar Bart Konner, Nadya Komaniç və Vladimir Qribiçin daxil olduğu nümayəndə heyətini qəbul edib. Xüsusi Olimpiya Hərəkatının 50 illik tarixə malik olduğunu və dünyanın 172 ölkəsini əhatə etdiyini deyən Timoti Şriver Forumun Bakıda təşkil edilməsinə göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. O, Azərbaycanın mötəbər beynəlxalq idman yarışlarına, o cümlədən Formula-1 və hazırda Bakıda keçirilən cüdo üzrə dünya çempionatına və eləcə də digər mühüm yarışlara ev sahibliyi etməsini yüksək qiymətləndirib.

Dövlətimizin başçısı bütün dünyanı əhatə edən və özündə 5 milyona yaxın insanı birləşdirən bu hərəkatın əqli və fiziki imkanları məhdud insanların cəmiyyətə inteqrasiya olunması işinə verdiyi dəstəyin önəmini qeyd edib və Azərbaycanda bu istiqamətdə mühüm tədbirlərin, o cümlədən bir sıra sosial proqramların həyata keçirildiyini vurğulayıb.

■ Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 25-də Bolqarıstanın Baş nazirinin ictimai asayiş və təhlükəsizlik üzrə müavini, müdafiə naziri Krasimir Karakaçanovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. İlk dəfə 10 il bundan əvvəl ölkəmizdə olduğunu qeyd edən Krasimir Karakaçanov ötən dövr ərzində Bakıdakı çox böyük inkişafın onlarda dərin təəssürat yaratdığını deyib.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev son illər Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksələrək strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayıb. Ölkələrimizin bir çox sahələrdə fəal əməkdaşlıq həyata keçirdiyini bildirən dövlətimizin başçısı yüksək səviyyəli səfərlərin bu işdə rolunu qeyd edib.

Görüşdə III «ADEX-2018» Azərbaycan Beynəlxalq müdafiə sərgisinin əhəmiyyətinə toxunulub, Bolqarıstan nümayəndə heyətinin bu tədbirdə iştirakı ikitərəfli münasibətlərimizin inkişafının yaxşı göstəricisi kimi dəyərləndirilib, bu səfərin əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

■ Prezident İlham Əliyev sentyabrın 25-də Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Azərbaycanla əməkdaşlığın gələcək imkanlarının müəyyənləşdirilməsi ilə bağlı keçiriləcək görüşlərin əhəmiyyətini qeyd edən qonaq TAP və TANAP layihələrinin önəmini vurğulayıb.

Dövlətimizin başçısı TAP və TANAP layihələrinə verdiyi maliyyə dəstəyinə görə Avropa İnvestisiya Bankına təşəkkürünü bildirib, qeyd edib ki, Azərbaycan iqtisadiyyatının inkişafının hazırkı səviyyəsi və mövcud olan əlverişli biznes mühiti ölkəmizi sərmayə qoyuluşu üçün cəlbedici edib.

Azərbaycan-İtaliya münasibətləri yüksələn xətlə inkişaf edir — səh. 2

Vergi sistemində qeydiyyat və uçota nəzarət gücləndirilir — səh. 3

Elektron ticarətin inkişafı istiqamətində yeni layihələr həyata keçirilir — səh. 4

Mənzil satışından tutulan vergi — səh. 5

# Azərbaycan-İtaliya münasibətləri yüksələn xətlə inkişaf edir

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva sentyabrın 25-də İtaliya Respublikasına rəsmi səfərə gəlib. Səfər çərçivəsində Mehriban xanım Əliyeva İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati ilə görüşüb.**

Azərbaycanın Birinci vitse-prezidentini səmimiyyətlə salamlayan İtaliya Senatının sədri qarşılıqlı münasibətləri, o cümlədən parlamentlərarası əlaqələri yüksək qiymətləndirib, son illərdə ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, qanunvericilik, mədəniyyət, elm-təhsil sahələrində çox böyük nailiyyətlərin əldə olunduğunu vurğulayıb.

Azərbaycan-İtaliya əlaqələrinin bundan sonra da uğurla inkişaf edəcəyinə əmin olduğunu bildirən Birinci vitse-prezident Heydər Əliyev Fondunun fəaliyyətinə verdiyi yüksək qiymətə görə İtaliya Senatının sədrinə minnətdarlığını ifadə edib.

Görüş zamanı vurğulanıb ki, İtaliya Prezidentinin bu ilin iyulunda Azərbaycana səfəri əlaqələrimizin səviyyəsinin göstəricisidir. Bu səfər çərçivəsində aparılan səmərəli danışıqlar münasibətlərimizin inkişafına mühüm töhfə verəcək. Söhbət zamanı İtaliya şirkətlərinin Azərbaycanda bir sıra iqtisadi layihələrdə uğurla iştirak etdiyi bildirilib. Qeyd olunub ki, rəsmi Roma Azərbaycanın Avropanın, o cümlədən İtaliyanın enerji təhlükəsizliyindəki rolunu yüksək dəyərləndirir.

Sentyabrın 25-də Romadakı Custiniani sarayında «Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq münasibətləri» adlı konfrans keçirilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva və İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati konfransın açılışında iştirak ediblər.

Konfransı açan İtaliya Senatında İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri xanım Rossana Boldi Azərbaycan Xalq Cümhuriyyətinin bu tədbirin əhəmiyyətindən bəhs edib. O, İtaliya-Azərbaycan əlaqələrinin çox yüksək səviyyədə inkişaf etdiyini bildirib və ikitərəfli strateji əməkdaşlığın önəmini qeyd edib. İki ölkə arasında əlaqələrin hər bir sahədə inkişaf etdiyini deyən Rossana Boldi Azərbaycan-İtaliya münasibətlərinin inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın rolunu xüsusi vurğulayıb. O, Heydər Əliyev Fondu tərəfindən İtaliyada həyata keçirilən layihələrin bu ölkənin mədəni irsinin qorunması baxımından önəmli olduğunu söyləyib.

İtaliya Respublikası Senatının sədri xanım Maria Elisabetta Alberti Kasellati və Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva konfransda nitq söyləyiblər.




Maria Elisabetta Alberti Kasellati Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı İtaliya Senatında keçirilən konfransın əhəmiyyətinə toxunaraq qeyd edib ki, Azərbaycan ötən əsrin əvvəllərində demokratiya, mütərəqqi ideyaların daşıyıcısı kimi mühüm addımlar atıb.

Azərbaycanın Birinci vitse-prezidentinin çoxşaxəli fəaliyyətini yüksək dəyərləndirən Senatın sədri qeyd edib ki, Heydər Əliyev Fondu İtaliyada mədəni və humanitar sahələrdə, o cümlədən mədəni abidələrin bərpası ilə bağlı bir sıra layihələr həyata keçirir. Bütün bu işlərə görə xanım Mehriban Əliyevaya minnətdarlığını bildirən Maria Elisabetta Alberti Kasellati bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə edib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva səmimi görüşə görə təşəkkürünü bildirib, bu yaxınlarda Senatın sədri kimi fəaliyyətə başlaması münasibətilə Maria Elisabetta Alberti Kasellatini təbrik edib, ona uğurlar arzulayıb.

Sonra konfrans işini panel iclaslarla davam etdirib. Tədbirin əhəmiyyətinin xüsusilə qeyd edildiyi çıxışlarda Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddət ərzində atdığı mütərəqqi addımlardan ətraflı bəhs olunub. Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizdə dövlətçilik ənənələrinin formalaşmasında mühüm rol oynayıb. Yüz il bundan əvvəl yaradılan Azərbaycan parlamentində müxtəlif millətlərin nümayəndələrinin təmsil olunması mühüm addım kimi qiymətləndirilib. Çıxışlarda, həmçinin, İtaliya-Azərbaycan əlaqələrinin müxtəlif sahələrdə inkişaf etdiyi bildirilib, ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki rolu xüsusi vurğulanıb. Qeyd olunub ki, Heydər Əliyev Fondu Azərbaycan və İtaliya arasında ikitərəfli münasibətlərin inkişafına əvəzsiz töhfə verib.

Sonda Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini əks etdirən qısametrajlı film nümayiş etdirilib.

# Nazirlər Kabineti büdcə layihələrinin bəyənilməsi barədə qərar qəbul edib

Sentyabrın 24-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib. İclasda 2019-cu il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri, eləcə də sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, ölkənin 2019-cu il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə edilib.

Son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi siyasətin ölkəmizin dinamik inkişafına rəvac verdiyini vurğulayan Baş nazir Novruz Məmmədov, bu baxımdan, gələn ilin dövlət büdcəsinin layihəsinin də əldə olunan nailiyyətlər zəminində, habelə dünyada gedən qlobal maliyyə-iqtisadi proseslər nəzərə alınmaqla tərtib edildiyini bildirib.

Qeyd edib ki, layihənin hazırlanmasında dövlət büdcəsinin həmişəki kimi sosialyönümlü olması, əhalinin maddi rifahının daim yüksəldilməsi əsas götürülüb, xüsusilə qeyri-neft sektorunun inkişafına dəstək verilməsi, dövlətin müdafiə qüdrətinin və təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq müstəvidə nüfuzunun daha da artırılması kimi mühüm amillərə diqqət yetirilib. Sonra gündəlikdə duran məsələlərə dair məruzələr dinlənilib, geniş müzakirələrdən sonra qərara alınıb ki, təqdim olunan büdcə layihələri bəyənilsin və «Büdcə sistemi haqqında» Qanuna müvafiq olaraq, büdcə zərfinə daxil olan sənədlər toplusu ölkə Prezidentinə təqdim edilsin.

# Vergilər Nazirliyində görüş

Sentyabrın 20-də vergilər naziri, Azərbaycan-Litva hökumətlərarası komissiyanın həmsədri Mikayıl Cabbarov Litva Respublikası Hökumətinin Kansleri Algirdas Stonçaytis ilə görüşüb.

Tanışlıq məqsədi daşıyan görüşdə tərəflər Azərbaycan ilə Litva arasında iqtisadi və digər sahələrdə əlaqələrin inkişafı, hökumətlərarası komissiyanın fəaliyyəti, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi və «Azərbaycanın dövlət qulluğunda islahatlara dəstək» Tvinninq layihəsi çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.



# Monqolustan Prezidenti Azərbaycanda olub

**Sentyabrın 24-də Azərbaycana işgüzar səfərə gələn Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqanı dövlətimizin başçısı İlham Əliyev qarşılayıb. Sonra hər iki prezidentin təkbətək görüşü olub.**

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Xaltmaaqiyn Battulqan bildirib ki, Bakıda keçirilən cüdo üzrə dünya çempionatını izləmək üçün Azərbaycana gələn Monqolustan vətəndaşları, xüsusilə idmançılar böyük məmnuniyyətlə qeyd edirlər ki, ölkəniz möhtəşəm inkişaf edir: «Onlar bunu öz gözləri ilə görürlər. Biz yerə enərkən təyyarədən görünürdü ki, siz çoxlu ağac əkmisiniz, təmiz küçələriniz var, çoxlu sayda müasir binalar, idman qurğuları inşa edilib. Bütün bunlar daha çox gəncin idmana yiyələnməsi üçündür və bu, böyüyən nəslin tərbiyəsinə müsbət təsir göstərir».

Monqolustanın dövlət başçısının Azərbaycana gəlişini məmnuniyyətlə qeyd edən Prezident İlham Əliyev bu səfərin xeyli əvvəl razılaşdırıldığını vurğulayıb: «Seçkilərdə qələbə münasibətilə məni təbrik etmək üçün zəng vuranda söhbət zamanı biz Bakıda görüşməklə bağlı razılığa gəldik. Mən Sizi dəvət etdim. Şadam ki, Siz Bakıya gəlmisiniz. Siz tanınmış cüdoçusunuz, buna görə də yarışları izləmək Sizin üçün maraqlı olacaq.

Bu görüş bizim ikitərəfli gündəliyimizi, əməkdaşlığımızı gücləndirmək, o cümlədən idman sahəsində qarşılıqlı fəaliyyəti inkişaf etdirməklə bağlı bir çox məsələlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı fürsətdir. Siz qeyd etdiniz ki, burada çox idman qurğuları var. Bu, belədir. Biz son zamanlar çoxlu idman obyektləri, stadionlar inşa etmişik və nəticələr çox yaxşıdır. Bizim idmançılarımız Rio de Janeyrodakı Olimpiadada 18 medal qazanıblar və idmanın bir çox növlərində, o cümlədən cüdoda da yaxşı nəticələr göstərirlər. Bir daha xoş gəlmisiniz. Mən əminəm ki, Azərbaycana səfəriniz Sizin üçün xoş olacaq».

Görüşdə iqtisadi, kənd təsərrüfatı, ticarət, investisiya, turizm, informasiya-kommunikasiya texnologiyaları, tranzit daşımalar, humanitar, təhsil, xalçaçılıq və Monqolustan tərəfinin Azərbaycan peykinin imkanlarından istifadəsi və «ASAN xidmət» təcrübəsinin bölüşülməsi ilə bağlı məsələlər müzakirə olunub. Söhbət zamanı, həmçinin, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

# Qeyri-neft sektorunda istehsalın dəstəklənməsi məqsədilə...

Prezident İlham Əliyevin «Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında» imzaladığı sərəncama əsasən, ölkədə rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalının stimullaşdırılmasına, onun xammal bazasının yaxşılaşdırılmasına, idxalı əvəz edən yeni istehsal sahələrinin yaradılmasına və ixrac imkanlarının genişləndirilməsinə dövlət dəstəyinin artırılması məqsədilə Nazirlər Kabineti aşağıdakı təklifləri və normativ hüquqi akt layihələrini üç ay müddətində hazırlayıb dövlət başçısına təqdim etməlidir:

- ölkədə istehsal edilməyən yeni rəqabətqabiliyyətli məhsullar istehsalının təşkili üçün «Azərbaycanda ilk» («First in Azerbaijan») investisiya təşviqi mexanizmi;
- mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının dəstəklənməsi məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi mexanizmi;
- mikro, kiçik və orta sahibkarlıq subyektlərinin istehsal fəaliyyətinin dəstəklənməsi üçün onların kadr potensialının artırılmasına dövlət dəstəyi mexanizmi;
- ölkədə istehsal olunmayan və daxili istehsalda istifadə edilən xammalın idxalına gömrük güzəştlərinin tətbiqi;
- mikro və kiçik sahibkarlıq subyektlərinin istehsal etdikləri məhsulların ticarət şəbəkələrində satışının genişləndirilməsi;
- «Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin klasterləri haqqında Nümunəvi Əsasnamə»;
- ölkə iqtisadiyyatına birbaşa investisiyalar cəlb edilməsinin dəstəklənməsi məqsədilə «Azərbaycana sərmayə» («Invest in Azerbaijan») mexanizmlərinin tənzimlənməsi Qaydası».

Həmçinin qeyri-neft sektorunun rəqabət və ixrac qabiliyyətinin artırılması məqsədilə İqtisadiyyat Nazirliyinə aşağıdakı vəzifələr həvalə olunub:

- ölkədə fəaliyyət göstərən müəssisələrin qlobal dəyər zəncirlərinə qoşulmasına dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək;
- müqayisəli üstünlük əsasında yerli istehsalı rəqabətqabiliyyətli olan konkret məhsulların siyahısının hazırlanmasını və istehsalının təşkili kommersiya cəhətdən səmərəli olan məhsulların təşviqini təmin etmək.

Bundan başqa, yerli istehsalı rəqabətqabiliyyətli olan konkret məhsulların siyahısının hazırlanması və istehsalının təşkili kommersiya cəhətdən səmərəli olan məhsulların təşviqinin təmin olunması məqsədilə Vergilər Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin, Energetika Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Statistika Komitəsinin, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, Əqli Mülkiyyət Agentliyinin və Dövlət Neft Şirkətinin nümayəndələrini cəlb etməklə işçi qrup yaradılacaq.

İqtisadiyyat Nazirliyi «www.azexport.az» və www.enterpriseazerbaijan.com» internet portallarının imkanlarından istifadə etməklə qeyri-neft sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsi, alternativ maliyyələşməyə açıq investisiya layihələrinin təqdim olunması, yerli malların ənənəvi və yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi, qeyri-neft məhsulları istehsalçılarının beynəlxalq bazara inteqrasiyası prosesinin sürətləndirilməsi və bu sektorun ixrac qabiliyyətinin artırılması istiqamətində tədbirlər görməlidir.

Dövlət başçısı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin qarşısında da tapşırıqlar qoyub. Belə ki, mərkəz Azərbaycana birbaşa xarici investisiyaların cəlb edilməsi potensialının təkmilləşdirilməsi və investisiya cəlbediciliyinin daha da artırılması məqsədilə ölkədə alternativ maliyyələşməyə açıq layihələr və yeni investisiya imkanları haqqında məlumatları əks etdirən, həmçinin investisiya layihələrini yerli və xarici investorların maliyyələşdirməsi üçün əlverişli platforma olan «www.enterpriseazerbaijan.com» internet portalının istifadəyə verilməsini təmin etməlidir.

# Əməkhaqqı ödənişində yeni qaydalar tətbiq olunacaq

Nazirlər Kabineti məşğulluq mərkəzlərinin göndərdiyi işlə təmin olunmuş şəxslərə əməkhaqqı ödənilməsində yeni qaydaları təsdiq edib. «Sığortaolunanların əməkhaqqının maliyyələşdirilməsi Qaydası»nda əksini tapan müddəalara əsasən, işəgötürənlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rayon (şəhər) məşğulluq mərkəzləri tərəfindən göndərilmiş işsiz vətəndaşları işə qəbul etdikləri zaman müəyyən müddət ərzində (3, 6, 9 və ya 12 ay) həmin işçilərin əmək haqlarının 50 faizi işsizlikdən sığorta vəsaiti hesabına maliyyələşdirilməlidir. Dövlət Məşğulluq Xidməti kiçik və orta sahibkarlıq subyektlərinə müraciət edərək bildirir ki, həmin proqramda iştirak etmək istəyən işəgötürənlərin müraciət etdikləri vaxta qədər ən azı bir il fəaliyyət müddəti olmalı və müraciət tarixinə yerinə yetirilməmiş vergi öhdəliyi, digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəlikləri olmamalıdır. Həmçinin son bir ildə iş yerlərinin sayını azaltmayan (ixtisar etməyən və ya ləğv etməyən), işçilərinin orta illik sayının 40 faizindən çoxunu sosial müdafiəyə xüsusi ehtiyacı olanlar təşkil edən, vakansiya bankına müvafiq məlumatları təqdim edən, kiçik və orta sahibkarlıq subyekti hesab olunan və müflis elan edilməsi barədə müraciəti olmayan işəgötürənlər proqramda iştirak edə bilərlər.

Əmək haqlarının maliyyələşdirilməsi proqramında iştirak etmək üçün müraciət edən işəgötürənlər nəzərdə tutulan iş yerləri üzrə vakansiyaları ən azı üç ay əvvəl vakansiya bankına təqdim etməlidirlər. Hər bir işəgötürən üzrə əmək haqlarının maliyyələşdirilməsi proqramına cəlb olunacaq sığortaolunanların sayı həmin işəgötürənin işçilərinin ümumi sayının beş faizindən çox ola bilməz. Eyni zamanda, işəgötürənlər həmin proqram çərçivəsində rayon (şəhər) məşğulluq mərkəzlərinin göndərişləri əsasında işə götürdükləri işçilərlə əmək müqavilələrinə proqram başa çatdıqdan sonra ən azı bir il ərzində (Əmək Məcəlləsinin 70-ci maddəsinin ç bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla) xitam verməməlidirlər.

# Vergi sistemində qeydiyyat və uçota nəzarət gücləndirilir



**Vergilər Nazirliyində həyata keçirilən struktur islahatları çərçivəsində uçot-qeydiyyat sistemində yeniliklərin tətbiqinə başlanılıb. İslahatlar çərçivəsində sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı prosesi yeni yaradılan Dövlət qeydiyyatı və uçota nəzarət departamentinə həvalə edilib. Departament kommersiya hüquqi şəxslərin və fərdi sahibkarların dövlət qeydiyyatı və uçotu işlərinin müasir tələblərə uyğunlaşdırılması, eyni zamanda uçot-qeydiyyat məlumat bazalarının təhlili istiqamətində fəaliyyət göstərir. Bu sahədə vergi qanunvericiliyinə riayət olunmasına vahid nəzarət funksiyası da departament tərəfindən həyata keçirilir.**
**Vergilər Nazirliyinin Dövlət qeydiyyatı və uçota nəzarət departamentinin baş direktoru Ələkbər Məmmədov «Vergilər» qəzetinə müsahibəsində bu sahədəki yeniliklərdən danışıb:**

- Dünyada uçot-qeydiyyat sistemində baş verən mütərəqqi yeniliklərin öyrənilməsi və ölkəmizin milli vergi sistemində tətbiq edilməsi əsas prioritetlərdəndir. Uçot-qeydiyyat məlumat bazasının aktuallığının təmin olunması istiqamətində vergi ödəyicilərinin də üzərinə müəyyən vəzifələr düşür. Vergi orqanına təqdim etdikləri ərizə məlumatlarında hər hansı dəyişiklik olarsa, bu barədə vergi ödəyiciləri qeydiyyatda olduqları vergi orqanına məlumat verməlidirlər. Xüsusilə aidiyyəti məlumatların departamentdaxili dövriyyəsi vergi nəzarətinin təkmilləşdirilməsinə şərait yaradır. Dövlət qeydiyyatı və uçota nəzarət departamentinin funksional tabeliyindəki strukturlar tərəfindən həm sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı və uçotu prosesi təşkil olunur, həm də uçot-baza məlumatlarının təhlili aparılır.

**- Uçot-qeydiyyat sistemindəki dəyişikliklər sahibkarlıq subyektlərinin qeydiyyatdan sonrakı prosesdə məlumat bazalarının dürüstləşdirilməsinə necə təsir göstərir?**

- Bu gün ən mühüm məsələlərdən biri sahibkarlıq subyektlərinin qeydiyyatdan sonrakı prosesdə uçot-baza məlumatlarının dürüstləşdirilməsi ilə bağlıdır. Hər şey vergi ödəyicilərinin düzgün uçot məlumatlarından başlayır. Təsadüfi deyil ki, bir sıra hallarda vergi ödəyicilərinin uçot-baza məlumatları ilə faktiki uçot məlumatları arasında olan kənarlaşmalar vergidən yayınma risklərinin müəyyən edilməsində və vergi nəzarəti tədbirlərinin düzgün seçilməsində öz mənfi təsirini göstərir. Əsas məqsəd uçot-məlumat bazasında şəffaflığın təmin edilməsi, vergi inzibatçılığında əlverişli mühitin formalaşdırılmasına yönəldilməsidir. Hazırda departamentin fəaliyyətinin əsas istiqamətlərindən biri uçot-qeydiyyat sisteminə təhlil əsaslı nəzarətin həyata keçirilməsidir. Vergi ödəyicilərinin, təsərrüfat subyektlərinin (obyektlərinin), NKA-ların, bank hesablarının və POS-terminalların uçota alınması, vergitutma bazasının genişləndirilməsi, uçot bazasının təkmilləşdirilməsi və baza məlumatları ilə vergi ödəyicilərinin faktiki vəziyyəti arasında olan kənarlaşmalar aşkar edildikdə müvafiq tədbirlərin görülməsi, baza məlumatlarının aktuallığının təmin edilməsi istiqamətində Vergi Məcəlləsinin 32-ci maddəsinə uyğun olaraq vergi nəzarəti aparılır. Uçot-qeydiyyat məlumat bazalarında olan uyğunsuzluqların (risklərin) müəyyən edilməsi iki formada: müəyyən edilmiş risk meyarlarına uyğun fərdi qaydada təhlillər aparılmaqla və Vergilər Nazirliyi tərəfindən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi vasitəsilə elektron qaydada avtomatik olaraq müəyyən edilməklə həyata keçirilir.

Artıq bir sıra istiqamətlərdə təhlillər aparılıb, uçotdan yayınan şəxslər müəyyənləşdirilib və qanunvericiliyə müvafiq işlərin görülməsi üçün vergi orqanlarına təqdim edilib. Təhlillər nəticəsində müəyyən olunub ki, 2016-2018-ci illərdə lisenziya əldə etmiş bir sıra təsərrüfat subyektləri vergi orqanlarında uçotdan yayınıb. Uçotda olan təsərrüfat obyektlərini icarəyə verən bəzi vergi ödəyicilərinin də uçot məlumatlarında uyğunsuzluqlar aşkarlanıb. Dövriyyənin düzgün göstərilməməsi, vergidən yayınma və ƏDV-nin məqsədləri üçün məcburi qeydiyyata dair ərizə vermək öhdəliyinin yaranmaması naminə bir neçə kommersiya hüquqi şəxs təsis edilməsi faktları da aşkarlanıb. Belə faktlar üzrə aparılan təhlillərin nəticələri müvafiq tədbirlərin görülməsi üçün Vergilər Nazirliyinin aidiyyəti strukturlarına təqdim olunub.

**- Sahibkarlıq subyektlərinin uçotu və qeydiyyatı sistemində hansı prosedurların təkmilləşdirilməsini daha zəruri hesab edirsiniz?**

- Təhlillər göstərir ki, eyni fiziki şəxslər dəfələrlə vergi orqanlarına müraciət edərək fəaliyyətlərinin dayandırılması müddətlərini (proqram təminatında maksimum 5 il müddət müəyyən olunub) uzadaraq özlərini passiv saxlayırlar. Bu isə ərazilər üzrə vergi ödəyicilərinin faktiki sayının müəyyən olunmasında, təhlillərin aparılmasında çətinliklər yaradır. Problemin aradan qaldırılmasına nail olmaq məqsədilə beynəlxalq təcrübə öyrənilərək fiziki şəxslərin uçotdan çıxarılması ilə bağlı təkliflər hazırlanır. Bundan başqa, NKA-nın vergi orqanlarında qeydiyyata alınması və qeydiyyatdan çıxarılması prosedurlarının təkmilləşdirilməsi sahəsində də işlər aparılır.

Son zamanlar bir şəxsin bir neçə hüquqi şəxsin təsisçisi və rəhbəri olaraq qeydiyyatdan keçməsi hallarına rast gəlinir ki, bu da bəzi fırıldaqçılara vergidən yayınmaq üçün «münbit» şərait yaradır. Belələri insanları iş yeri, əməkhaqqı və gəlir mənbəyi ilə şirnikləndirməklə onların elektron imzasından istifadə edərək yeni hüquqi şəxslər yaradır və fırıldaqçı əməllərinin əhatə dairəsini genişləndirir. Vəziyyətdən çıxış kimi, bu sahədə qabaqcıl xarici təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi istiqamətində işlər görülür.

> **Dövriyyənin düzgün göstərilməməsi, vergidən yayınma və ƏDV-nin məqsədləri üçün məcburi qeydiyyata dair ərizə vermək öhdəliyinin yaranmaması naminə bir neçə kommersiya hüquqi şəxs təsis edənlər var**

**- Vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar var. Böyük həcmli dövriyyələrə malik satış obyektlərində və inşaat materialları bazarında belə hallara daha çox rast gəlinir. Bununla bağlı hansı tədbirlər görülür?**

- Son dövrlər vergi sistemində həyata keçirilən islahatlar vergilərin yığılmasından könüllü ödəməyə keçidin sürətləndirilməsini, vergi yoxlamalarının səmərəliliyinin artırılmasını, sahibkarlar tərəfindən aparılan əməliyyatların tam həcmdə və düzgün bəyan olunması yolu ilə şəffaflığın təmin edilməsini, düzgün uçot sisteminin formalaşdırılmasını tələb edir. Bu istiqamətdə müəyyən müsbət nəticələr əldə olunsa da, hələ də bəzi şəxslər vergi orqanlarında uçota durmadan, vergi ödəmədən fəaliyyət göstərirlər. Bu isə ciddi qanun pozuntusu olmaqla yanaşı, ədalətli rəqabət mühitinin pozulmasına, dövlət büdcəsinə vergi daxilolmalarının azalmasına səbəb olur. Aparılan təhlillər göstərir ki, belə hallara böyük həcmli dövriyyələrə malik satış yerlərində, inşaat materialları bazarlarında daha çox rast gəlinir. Bununla əlaqədar vergilər nazirinin müvafiq əmri ilə «İnşaat materialları bazarlarında vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğulolma və vergidən yayınma hallarının qarşısının alınması ilə bağlı Tədbirlər Planı», «İnşaat materialları bazarlarında vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğulolma və vergidən yayınma hallarının qarşısının alınması üzrə işlərin təşkilini əks etdirən Proseslər Xəritəsi» təsdiq edilib. Qeyd olunan sənədlərə uyğun olaraq müvafiq işlər həyata keçirilir.

**- Elektron qeydiyyat sistemində hansı dəyişiklik planlaşdırılır? Bu cür qeydiyyatın sadələşdirilməsini zəruri hesab edirsinizmi?**

- Vergilər Nazirliyi əhaliyə göstərdiyi elektron xidmətlərin sayına görə mərkəzi icra hakimiyyəti orqanları arasında öndədir. Nazirlik tərəfindən elektronlaşdırılması mümkün olan 69 xidmət növü müəyyənləşdirilərək «Elektron xidmətlərin siyahısı»na daxil edilib. Bu xidmətlərdən 26-sı məhz Dövlət qeydiyyatı və uçota nəzarət departamenti tərəfindən göstərilən xidmətlərdir. Yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı 2012-ci ilin fevralından tətbiq edilir. Həmin tarixdən indiyədək 27 mindən çox hüquqi şəxsin və ya ümumi qeydiyyata alınmış hüquqi şəxslərin 52,3 faizinin qeydiyyatı bu üsulla aparılıb. 2017-ci ilin yekunlarına görə isə hüquqi şəxslərin 69,4 faizi elektron qeydiyyatdan keçib.

**- Əcnəbi iş adamlarının (qeyri-rezidentlərin) elektron qeydiyyatı sahəsində hansısa yeniliklər nəzərdə tutulurmu?**

- Qanunvericiliyə edilmiş dəyişikliklərə görə, yaxın gələcəkdə xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin də elektron qeydiyyat sistemi tətbiq olunacaq. Bunun üçün əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin internet informasiya ehtiyatında yerləşdirilmiş elektron ərizə formasını dolduraraq gücləndirilmiş elektron imzası ilə təsdiq etməklə qeydiyyat orqanına müraciət etməsi nəzərdə tutulur. Müraciət zamanı təsisçi fəaliyyət sahəsi barədə məlumatı bəyan etməli, özünün daxil etdiyi məlumatlara əsasən proqram təminatı tərəfindən hazırlanmış nizamnamə ilə real vaxt rejimində tanış olmalı və onu gücləndirilmiş elektron imza ilə təsdiq etməlidir. Həmçinin xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətin Azərbaycan Respublikasında hüquqi ünvanını təsdiq edən sənəd Azərbaycan dilinə tərcümə edilmiş nüsxəsi ilə birlikdə skan edilərək ərizəyə əlavə olunur. Xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyət dövlət qeydiyyatına alındığı gün dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət reyestrindən çıxarış və nizamnamə onun elektron ünvanına göndəriləcək. Artıq bu istiqamətdə işlər yekun mərhələyə qədəm qoyub.

**- Vergilər Nazirliyi ilə digər dövlət qurumları arasında informasiya mübadiləsi necə aparılır?**

- Dövlət qeydiyyatı və uçota nəzarət departamenti tərəfindən Vergilər Nazirliyinin digər qurumlarla məlumat bazalarının inteqrasiyası istiqamətində işlər davam etdirilir. Bununla bağlı mütəmadi olaraq aidiyyəti qurumların nümayəndələri ilə görüşlər keçirilir, müzakirələr aparılır, layihələr hazırlanır və müvafiq razılaşma müqavilələri bağlanılır. Hazırda Vergilər Nazirliyi ilə 25 dövlət qurumu arasında belə müqavilələr var. Bu, nazirliyin mövcud informasiya bazasının, o cümlədən uçot-qeydiyyat bazasının daha da genişləndirilməsi və vergidən yayınma hallarının qarşısının alınmasına xidmət edir. Digər qurumlarda olan məlumatların inteqrasiyası vergi orqanlarının işinin effektivliyinin artırılmasına, nəzarət tədbirlərinin daha keyfiyyətli, yeni üslubda və müasir innovasiyalar tətbiq edilməklə həyata keçirilməsinə zəmin yaradır. Bütün bunlar vergi ödəyicilərinin uçot məlumat bazasının aktuallığının təmin edilməsinə bilavasitə müsbət təsir göstərir. Belə ki, aidiyyəti qurumlardan alınmış məlumatlara əsasən vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğulolma hallarının qarşısının alınması, uçot vahidlərinin (NKA və s.) tətbiq edilməsi və digər vergitutma obyektlərinin uçotu, habelə vergi qanunvericiliyinə riayət etmədən fəaliyyət göstərənlər barədə üçüncü şəxslərdən məlumat alınmış olur.

**Elxan SALAHOV**

# Hər bir sahibkar dövlətin iqtisadi maraqlarının qorunmasında fəal olmalıdır

## İnşaat materiallarının satışı ilə məşğul olan vergi ödəyiciləri ilə maarifləndirici görüşlər keçirilir

> Vergilər Nazirliyinin həyata keçirdiyi vergi siyasətinin əsas istiqamətlərindən olan vergilərin məcburi yığılmasından könüllü əməletməyə keçidin sürətləndirilməsi ilə yanaşı, vergi yoxlamalarının səmərəliliyinin artırılması, sahibkarlar tərəfindən aparılan əməliyyatların tam həcmdə və düzgün bəyan olunması yolu ilə şəffaflığın təmin edilməsidir. Bunun üçün sahibkarlardan öz uçot sistemlərini formalaşdırmaları tələb olunur. Bu istiqamətdə müəyyən müsbət nəticələr əldə olunsa da, hələ də bəzi şəxslər vergi orqanlarında uçota durmadan fəaliyyət göstərməyə davam edirlər. Qanunsuz sahibkarlığın bir forması olan belə hallar, qanun pozuntusu olmaqla bərabər, ədalətli rəqabət mühitinin pozulmasına, dövlət büdcəsinə vergi daxilolmalarının azalmasına səbəb olur.

Hazırda vergidən ən çox yayınma hallarına inşaat materialları və iri ticarət yarmarkalarında rast gəlinir. Araşdırmalar göstərir ki, iri dövriyyəyə malik satış yerlərində, inşaat materialları bazarında fəaliyyət göstərən sahibkarların böyük bir qisminin uçot-mühasibat işləri yerində deyil. Qeyd edilən sahə üzrə aparılan monitorinqlər də onu deməyə əsas verir ki, bir çox təsərrüfat subyektləri vergi yoxlamalarının sayının azaldılmasından və müvafiq qanunvericiliyin kifayət qədər yumşaq olmasından sui-istifadə edərək, vergi orqanlarında uçota durmadan vergiləri dövlət büdcəsinə ödəməkdən yayınırlar. Bu cür vəziyyət isə təbii ki, vergi orqanlarının öz vəzifə və səlahiyyətləri daxilində ciddi tədbirlərin görülməsini zəruri edir.

Bu məqsədlə Vergilər Nazirliyi inşaat-tikinti materiallarının daha çox satıldığı yerlərdə - Ziya Bünyadov prospekti, 2095-2096-cı məhəllə, «Dərnəgül» və «Baksol» adlanan ərazilərdə sahibkarlıq fəaliyyətinin vergi qanunvericiliyinə uyğun təşkilinin qaydaya salınması ilə bağlı müvafiq qərar qəbul edib. Nazirlik tərəfindən təsdiq edilmiş «İnşaat materialları bazarlarında vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğulolma və vergidənyayınma hallarının qarşısının alınması ilə bağlı Tədbirlər Planı»na və «İnşaat materialları bazarında vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğulolma və vergidənyayınma hallarının qarşısının alınması üzrə işlərin təşkilini əks etdirən Proseslər Xəritəsi»nə əsasən, qeyd olunan ərazilərdə uçot işinin təşkili işlərinə başlanılıb. Bu məqsədlə yaradılmış işçi qrupun rəhbəri Nadir Cəbrayılovun sözlərinə görə, Tədbirlər Planına əsasən, işlərin mərhələli şəkildə - hazırlıq, ünvanlı xidmət-məlumatlandırma, uçota alınma, vergi öhdəliklərinin müəyyən edilməsi və nəzarət proseslərini aparmaqla həyata keçirilməsi nəzərdə tutulub. İşçi qrupun üzvlərinə vergi uçotu ilə bağlı ərizələrin və digər sənədlərin yerində qəbulu, vergi öhdəliklərinin müəyyənləşdirilməsi və vergi borclarının alınması, vergi nəzarəti tədbirlərinin keçirilməsi, vergi ödəyicisinin baza məlumatlarına baxmaq, özünün və ya təsərrüfat subyektinin uçotda olub-olmamasını müəyyənləşdirməklə yanaşı, uçota alınmanı təmin etmək üçün onları lazımi texniki vasitələr və ləvazimatlarla (planşet, data kart, nəqliyyat, baza məlumatlarına giriş imkanı) təmin etmək səlahiyyətləri verilib

Tədbirlər Planında nəzərdə tutulmuş tapşırıqların icrası məqsədilə departamentin əməkdaşları inşaat materiallarının satışı ilə məşğul olan vergi ödəyiciləri ilə maarifləndirici monitorinqlər keçirməyə başlayıblar. Maarifləndirici xarakter daşıyan görüşlərdə vergi ödəyicilərinə vergi qanunvericiliyinin tələblərinə riayət etmək, öz mühasibat işlərini və uçot məsələlərini qaydaya salmaq, vergi öhdəliklərini yerinə yetirmək barədə izahedici məlumatlar verilib. Bundan başqa, inşaat materiallarının satışı ilə məşğul olan sahibkarların elektron qutularına uçotun təmin edilməsi barədə məktub və bildirişlər göndərilib. Bu cür görüşlər və ödəyicilərə məlumatların elektron qaydada təqdim olunması ayın sonuna kimi davam etdiriləcək. Əsas məqsəd sahibkarlarda uçotun təşkilinin zəruriliyi barədə vərdişlərin formalaşdırılmasından ibarətdir. Maarifləndirmə və izahedici tədbirlər effekt vermədikdə isə digər vasitələrdən istifadə olunması qaçılmazdır, xəbərdarlıqlara məhəl qoymayan ödəyicilər haqqında qanunvericilik çərçivəsində müvafiq addımlar atılacaq.

Vergilər Nazirliyi sahibkarları vergi qanunvericiliyinin tələblərinə əməl etməyə, şəffaf fəaliyyətə dəvət edir. Hər bir vergi ödəyicisi dövlətin iqtisadi maraqlarının qorunmasında, büdcəyə vergi daxilolmalarının təmin edilməsində üzərinə düşən məsuliyyəti və vəzifələri dərk edərək, hər şeydən əvvəl, öz Konstitusiya borcunu yerinə yetirməlidir.

**E.CƏFƏRLİ**

# Birgə nəzarət mexanizmi tətbiq olunacaq

Dövlət Gömrük Komitəsi və Vergilər Nazirliyi arasında xarici iqtisadi fəaliyyət məsələlərinə dair informasiya mübadiləsi qurulub. Komitənin sədr müavini İqbal Babayev bildirib ki, hər iki qurum dövlət başçısının imzaladığı «İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında» sərəncamına əsasən, birgə nəzarət mexanizminin tətbiqi üzrə işləri davam etdirir. Həmin istiqamətlərdən biri olan ixrac-idxal əməliyyatları məsələlərinə dair tam informasiya mübadiləsinin təmin olunması sahəsində mühüm işlər görülüb. Tərəflər arasında əldə edilmiş razılaşmaya əsasən, Vahid Risk Platforması (VRP) - məlumatların ötürülməsi sistemi qurulub. Sistem gömrük və vergi orqanları tərəfindən xarici ticarət fəaliyyətinin iştirakçılarına dair risk qiymətləndirilməsinin təşkili, risk qrupları üzrə bölgü aparılması məqsədilə mal sahibləri, daşıyıcıları və ya onları təmsil edən şəxslər haqqında qarşılıqlı məlumat mübadiləsini təmin edir.

Hazırda malların gömrükdən keçirilməsi zamanı bütün məlumatlar Vergilər Nazirliyinə ötürülür. Gələcəkdə gömrük orqanları ilə Maliyyə Nazirliyi arasında da informasiya mübadiləsinin qurulması planlaşdırılır.

# Əmanətlərlə bağlı yeni qərar qüvvəyə mindi

Konstitusiya Məhkəməsinin əmanətlərin sığortalanması ilə bağlı bu günlərdə qəbul etdiyi qərarı şərh edən iqtisadçı Vüqar Bayramov bildirib ki, müflis olan banklarda bonuslu əmanətlərin qorunan olub-olmaması müəyyənləşdirilən zaman qorunan faizlərin hesablanmasında problemlər olduğu üçün bu sahəyə konkret aydınlıq gətirilməsinə ciddi ehtiyac vardı: «Əmanətçilərin bir qismi öz qorunan əmanətlərini ala bilmirdilər. Daha çox əmanət cəlb etmək üçün keçirilən bonus kampaniyaları qorunan əmanətlərə də aid edilirdi. Əmanətlərin Sığortalanması Fondu isə bankların ödədiyi bonusun faiz dərəcələrinə daxil edilib-edilməməsi barədə qərar verə bilmədiyi üçün bəzi əmanətlər qorunmayan hesab olunurdu və nəticədə vətəndaş öz pulunu geri ala bilmirdi. Tutaq ki, müflis olmuş bank 15 faizlə qorunan manat əmanəti qəbul edir və əlavə olaraq illik 2 faiz bonus ödəyir. Bu halda sual yaranırdı ki, həmin əmanətin faizi 15-dir, yoxsa 17? Belə çıxır ki, 15 faiz sığortalanandır, 17 faizli əmanət isə qorunmur. Konstitusiya Məhkəməsinin sonuncu qərarına əsasən, bundan sonra əmanətlə bağlı verilən bonus illik faiz dərəcəsinə aid edilməyəcək. Bu isə o deməkdir ki, 2 faiz bonus olan maksimum sığortalanan faizlə cəlb edilən əmanət müqavilələrində divident faizi 17 yox, 15-dir. Yəni həmin əmanətlər qorunur və geri qaytarılmalıdır. Konstitusiya Məhkəməsinin bu qərarı bütünlüklə əmanətçilərin xeyrinədir və yeni sənəd indiyədək mövcud olan anlaşılmazlıqlara son qoyub».

İqtisadçı onu da qeyd edib ki, bonuslar səbəbindən əmanətlərini ala bilməyən əmanətçilər son qərardan sonra öz vəsaitlərini Əmanətlərin Sığortlanması Fondundan geri ala bilərlər. Söhbət milyonlarla manatla ifadə olunan əmanətlərin geri qaytarılmasından gedir.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin
Vergi siyasəti departamentinin baş direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

# Əlillərə vergi güzəşti

***Birinci qrup əliləm və himayəmdə üç azyaşlı uşaq var. Muzdlu işlə əlaqədar əldə etdiyim aylıq gəlir 500 manatdır. Bu halda mənə hansı vergi güzəştləri tətbiq edilir?***

Vergi Məcəlləsinin 102.3-cü maddəsinə əsasən, 1-ci və 2-ci qrup əlillərin (müharibə əlillərindən başqa) hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat məbləğində azaldılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 yanvar 2001-ci il tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş «Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin siyahısı»nın 1.9-cu bəndində qeyd edilmişdir ki, I və II qrup əlillərin (müharibə əlillərindən başqa) güzəşt hüququ Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbəsinin arayışı və tibbi-sosial ekspert komissiyasının rəyi və ya arayışı əsasında müəyyənləşdirilir.

Eyni zamanda, Vergi Məcəlləsinin 102.8-ci maddəsinə əsasən, əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin bu maddədə sadalanan vergi güzəştləri hüququ müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş sənədlərin təqdim edildiyi andan yaranır və yalnız fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) həyata keçirilir.

Vergi Məcəlləsinin 102.1.6-cı maddəsinə əsasən, fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda, ölkə üzrə yaşayış minimumunun 1 misli (2018-ci il üçün 173 manat), illik gəliri 30.000 manatadək olduqda isə ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi gəlir vergisindən azaddır.

Bunlarla yanaşı, Vergi Məcəlləsinin 102.5-ci maddəsinə əsasən, qohumluq dərəcəsindən asılı olmayaraq, himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır.

***Qeyd olunanlara əsasən:***

Birinci qrup əlil şəxsin əldə etdiyi 500 manat əməkhaqqından əlilliyə görə 200 manat, himayəsində üç nəfərin olmasına görə 50 manat və 2018-ci il üçün ölkə üzrə yaşayış minimumunun 1 misli, yəni 173 manat çıxılmaqla qalan məbləğdən 14 faiz dərəcəsi ilə gəlir vergisi tutulur.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Şabran şəhərində 3 saylı ƏVİ-nin əməkdaşları rayonda fəaliyyət göstərən bələdiyyə üzvləri ilə keçirdikləri görüşdə onlara vergi qanunvericiliyində və inzibatçılığında edilən yenilik və dəyişikliklər, eləcə də «Rüblük vergi bəyannamələrinin, hesabat formalarının və onların əlavələrinin tərtib edilməsi Qaydaları» haqqında, hesablanmış vergilərin vaxtında büdcəyə köçürülməsi, bələdiyyələr tərəfindən toplanılan vergilərin poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə ödənilməsi, «Yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması» və «Yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu» ilə bağlı metodiki vəsaitlərin tətbiqi barədə izahedici məlumatlar verilmişdir. Sonda tədbir iştirakçılarının sualları ətraflı cavablandırılmışdır.

- Ucar rayonunda 9 saylı ƏVİ-nin əməkdaşlarının vergi ödəyiciləri ilə keçirdikləri görüşün əsas mövzusu vergi qanunvericiliyinə edilmiş dəyişikliklərin sahibkarların fəaliyyətinin stimullaşdırılmasında rolu, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi inzibatçılığının, o cümlədən vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, eləcə də elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadə qaydaları, ictimai iaşə, pərakəndə ticarət, topdansatış ticarət və «İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlir və xərclərin uçotunun aparılması Qaydaları» və digər məsələlər olmuşdur. Vergi ödəyicilərinin qeydiyyatı, nağdsız hesablaşmaların genişləndirilməsi, nağdsız ödənişlərdən, o cümlədən POS-terminallardan istifadə, vergidən yayınan şəxslərdə aparılacaq nəzarət tədbirləri, tətbiq ediləcək maliyyə sanksiyaları və s. barədə tədbir iştirakçılarına ətraflı məlumat verilmişdir. Sonda qanunvericilikdə əksini tapmış yeni anlayışlar, yeni vergi bəyannamələri və hesabat formaları, vergi ödəyiciləri ilə partnyorluq münasibətlərinin dərinləşdirilməsi, şəffaf vergi xidmətlərinin göstərilməsi, uçot sisteminin şəffaflaşdırılması və digər məsələlər barədə vergi ödəyicilərinin ünvanladıqları suallar ətraflı cavablandırılmışdır.

- Tovuz şəhərində 14 saylı ƏVİ-nin əməkdaşları rayon ərazisində fəaliyyət göstərən vergi ödəyiciləri ilə görüş keçirmişlər. Görüşdə «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması», «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması», «Topdansatış ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması», «İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması» Qaydaları, «Nağdsız hesablaşmalar haqqında» Qanun, eləcə də borclu vergi ödəyicilərinin maarifləndirilməsi, əmək müqaviləsi və digər məsələlərlə bağlı müzakirələr aparılmış, izahatlar verilmişdir.

# Elektron ticarətin inkişafı istiqamətində yeni layihələr həyata keçirilir

Sentyabrın 24-25-də Bakıda keçirilən Beynəlxalq Elektron Ticarət Forumunda Azərbaycanın müxtəlif dövlət qurumlarının, beynəlxalq təşkilatların, kiçik və orta sahibkarlıq subyektlərinin, ictimai təşkilatların, e-ticarət və onlayn ödəniş platformalarının nümayəndələri iştirak ediblər.

Tədbirdə giriş nitqi ilə çıxış edən Azərbaycan İnformasiya Texnologiyalarının İnkişafı Fondunun icraçı direktorunun müavini, BMT-nin elektron ticarət və rəqəmsal iqtisadiyyat üzrə hökumətlərarası ekspert qrupunun rəhbəri Azər Bayramov bildirib ki, forum ölkəmizdə elektron ticarət, elektron ödəniş və logistika xidmətləri, gömrük-vergi xidmətlərinin təkmilləşdirilməsi, kiçik və orta sahibkarlığın e-ticarət sahəsində rolunun artırılması və digər məsələlərin həlli baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd olunub ki, bu tədbir dövlət-özəl sektor ödəniş platformalarının birgə açıq dialoqunun yaradılmasına imkan yaradacaqdır.

### Yeni nəsil şəxsiyyət vəsiqələri e-ticarətin aparılmasına imkan verəcək

***Rabitə, nəqliyyat və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə*** bildirib ki, ölkədə internetin imkanlarının artması e-ticarətin inkişafı baxımından əlverişli şərait yaradır. Beynəlxalq elektron ödəniş strukturlarına inteqrasiya olunan Azərbaycanda elektron ticarətin həcmi ildən-ilə artır ki, bu da iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, telekommunikasiya infrastrukturunun modernləşdirilməsi, eləcə də bank sektorunda elektron xidmətlərin genişləndirilməsi hesabına baş verir. Nəqliyyat və telekommunikasiya infrastrukturunun təkmilləşdirilməsi hesabına AzərbaycanTranzit Poçt Mərkəzinə (HUB) çevrilib. Qeyd edilib ki, yeni nəsil şəxsiyyət vəsiqələrində «elektron imza» çiplərinin yerləşdirilməsi də elektron ticarətin aparılmasına imkan verəcək.

Ölkəmizin beynəlxalq ticarət sisteminin mühüm qovşaqlarından biri kimi mühüm geocoğrafi mövqeyinə diqqət çəkən natiq, Azərbaycanın Qafqaz regionundan keçən Avrasiya nəqliyyat bağlantılarının inkişafı üzrə bir sıra layihələrin təşəbbüskarı və fəal iştirakçısı olduğunu qeyd edib. O, ölkəmizdə etibarlı, sürətli və təhlükəsiz nəqliyyat sisteminin yaradılması və respublika ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi məqsədilə infrastrukturun yenilənməsi, multimodal logistika sistemlərinin təkmilləşdirilməsinə böyük önəm verildiyini xatırladıb.

### Aİ Azərbaycanda e-ticarətlə bağlı layihələrə dəstək verir

***Avropa İttifaqının (Aİ) ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas*** bildirib ki, e-ticarət dünya iqtisadiyyatında mühüm yer tutmaqla cəmiyyət həyatının ayrılmaz hissəsinə çevrilib. Avropa regionunda hər il e-ticarətin dövriyyəsi 15% artır, 2017-ci ildə bu sahə üzrə bazar əməliyyatlarının həcmi 600 milyard avro təşkil edib. Ancaq Avropa Birliyi hələ də bu göstərici ilə razılaşmır və e-kommersiyanın dövriyyəsini bir neçə dəfə artırmaq məqsədilə hər il müxtəlif direktivlər hazırlayır, bank, ödəniş strukturları və proseslə bağlı olan bütün tərəflərin birgə iştirakı ilə yeni stimullar üzərində işləyir.

Aİ ilə Azərbaycan arasında bir çox sahələrdə davam etdirilən əməkdaşlığın mühüm faydalar verdiyini diqqətə çatdıran K.Jankauskas bildirib ki, təşkilatın dəstək verdiyi layihələrdən biri rəqəmsal iqtisadiyyat quruculuğunda mühüm yer tutan elektron ticarət platformasının yaradılması və bu sahədə Azərbaycan qanunvericiliyinin Avropa standartlarına uyğunlaşdırılmasıdır. Aİ «Şərq tərəfdaşlığı» proqramı çərçivəsində Azərbaycanda elektron xidmətlərin və e-ticarətin inkişafı məqsədilə «Rəqəmli bazarların harmonizasiyası» layihəsi həyata keçirir. Layihəyə uyğun olaraq, qurum tərəfindən Azərbaycanda elektron gömrük (e-customs), elektron ticarət (e-commerce ) platformalarının yaradılmasına dəstək göstərilib. Aİ-nin ekspertlərinin iştirakı ilə 2017-ci ildən həyata keçirilən «Azərbaycan Respublikasında elektron xidmətlərin və elektron ticarətin inkişafının gücləndirilməsi» layihəsi «e-imza» və «e-ödəniş» xidmətlərinin beynəlxalq standartlar əsasında texniki cəhətdən daha da inkişaf etdirilməsi, hüquqi-tənzimləyici çərçivənin təkmilləşdirilməsi və Azərbaycanın Etimad Nişanı Sisteminin yaradılmasını nəzərdə tutur.

BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının baş katibinin müavini İsabella Durant son illər ərzində e-ticarət bazarının sürətli dəyişikliklərlə üzləşdiyinə diqqət çəkərək dərin rəqabət mühitində müxtəlif meyillərin yarandığını, onlayn satışlar və bazar araşdırmaları sahəsində iri şirkətlərin yeni mübarizə strategiyaları yaratdıqlarını vurğulayıb.

### Beynəlxalq elektron satış portalları ilə əməkdaşlıq edilir

***İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı*** qeyd edib ki, Azərbaycan hökuməti beynəlxalq elektron ticarət sisteminə inteqrasiya olunmaq üçün məqsədyönlü iş aparır. Biznes sektorunun ixtiyarına verilmiş «Azexport.az» portalı e-ticarət üçün yaxşı fürsət yaradır. Portal «Made in Azerbaijan» brendi məhsullarının ixrac coğrafiyasını genişləndirmək və yerli istehsalçılara yeni potensial müştərilərin tapılmasında dəstək olmaq məqsədi ilə, daha bir neçə beynəlxalq elektron satış portalları ilə əməkdaşlıq edir. İndiyədək həmin portal vasitəsilə azərbaycanlı sahibkarlar 800 milyon manatdan artıq sifarişlər alıblar.

Vüsal Qasımlı bildirib ki, dövlət başçısının imzaladığı müvafiq fərmana əsasən, yerli və xarici biznesin qlobal elektron ticarət bazarlarına çıxışının təmin edilməsi məqsədilə Azərbaycan Rəqəmsal Ticarət Qovşağı yaradılıb. Qovşaq ölkəmizdə vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin və e-ticarətin həyata keçirilməsinə imkan verir. Hazırda Azərbaycan e-ticarətin inkişafı məqsədilə xarici dövlətlər və beynəlxalq təşkilatlarla «e-imza»nın qarşılıqlı tanıdılması istiqamətində fəal iş aparır.

### Elektron ödəniş sisteminin inkişafı vacib amildir

***Dövlət Gömrük Komitəsinin sədr müavini İqbal Babayev*** qeyd edib ki, Azərbaycanda elektron ticarət dinamik inkişaf edir. 2016-cı ildə ölkədə elektron kommersiya dövriyyəsi 25 milyon 613 min manat, 2017-ci ildə isə 46 milyon 227 min manat təşkil edib. Amma dünya ticarəti ilə nisbətdə Azərbaycanın ticarət dövriyyəsi geridə qalır. Elektron ticarət - elektron platforma, elektron ödəniş sistemləri və logistika kimi 3 əsas meyar üzərindən inkişaf edir ki, yaranan problemlər də əsasən elektron ödəniş sistemləri ilə bağlıdır. Bu baxımdan, bazarın qloballaşması, ticarət zəncirinin, eyni zamanda bununla bağlı prosedurların mürəkkəbləşməsi gömrük sahəsində də dəyişiklikləri tələb edir.

Forum öz işini «Elektron ticarət üzrə strategiyanın formalaşdırılması», «Hüquqi və tənzimləyici əsaslar», «İnnovativ ödəniş həlləri», «Elektron ticarətin inkişafında ticarət logistikası» mövzularında sessiyalarda davam etdirib. Müvafiq dövlət orqanlarının, beynəlxalq təşkilatların təmsilçiləri, yerli və xarici şirkətlərin nümayəndələri sessiyalarda çıxış edərək, e-ticarətin inkişafına mane olan amillər, bu istiqamətdə motivasiyaların artırılması üçün yeni modulların tətbiqi və digər məsələlər haqqında rəy və təkliflərini bildiriblər.

**Elbrus CƏFƏRLİ**

# Elektron ticarət platforması genişləndirilir

Azərbaycan və Çin birgə e-ticarət platformasının yaradılması barədə razılığa gəlib. Çin Xalq Respublikası Sənaye və Kommersiya Federasiyasının rəhbəri Donq Yancunun başçılıq etdiyi nümayəndə heyətinin «Azərpoçt» MMC-də keçirilən görüşündə bu barədə razılıq əldə olunub. Layihə çərçivəsində e-ticarət platforması üzərindən Azərbaycan vətəndaşlarına operativ xidmətlərin göstərilməsi təmin olunacaq. Çin hökuməti sifariş olunan e-ticarət mallarının bu ölkənin kuryer şirkətləri tərəfindən «Silk Way» aviaşirkəti vasitəsilə ölkəmizə gətirilməsini təklif edib.

Azərbaycan digər dövlətlərlə və xarici şirkətlərlə e-ticarət platformasının yaradılmasını da planlaşdırır. İndiyədək İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə Rusiyanın «QazinformService» şirkəti, Polşanın «Asseco data Sistems» şirkəti və İsveçrənin «OrientSwiss» şirkəti arasında əməkdaşlıq sazişləri imzalanıb. Məqsəd ölkələrarası biznes əlaqələrinin yaxşılaşdırılmasına, Azərbaycanın iqtisadi inkişafının, e-ticarət və e-kommersiyanın inkişafının asanlaşdırılmasıdır.

Bir müddət əvvəl Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Ümumdünya Kiçik və Orta Sahibkarlıq Forumu arasında imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, ölkəmizə məxsus kiçik və orta sahibkarlıq subyektləri öz məhsullarını «SME.market» platforması vasitəsilə elektron ticarət vasitəsilə sata bilirlər. Hazırda pilot layihə əsasında həyata keçirilən «SME.market» e-ticarət platforması yaxın müddətdə geniş ticarət şəbəkəsinə çevriləcək. Birgə əməkdaşlığa əsasən, «SME.market» ilə Azərbaycanda fəaliyyət göstərən e-ticarət platforması - «Azexport» arasında da əlaqə yaradılacaq. Bununla da yerli məhsulların xarici bazarlara çıxış imkanları bir qədər də genişlənəcək. Sahibkarlar əlavə vaxt itirmədən daha böyük həcmdə sifarişlərin icrasını həyata keçirə biləcəklər. Kiçik və orta sahibkarların bu proqramdan rahatlıqla istifadə etmələri üçün tezliklə e-ticarətdən istifadə qaydalarına dair hər üç ölkədə təlimlərə start veriləcək.

Yaxın vaxtlara belə bir platformanın Azərbaycan, Rusiya və Türkiyə iş adamlarının iştirakı ilə yaradılması da nəzərdə tutulur. Regionda birgə geniş iqtisadi proqramlar, layihələr həyata keçirmək məqsədilə həmin ölkələrin iş adamları iqtisadi sahələrdə birgə fəaliyyət üçün TAR (Türkiyə, Azərbaycan, Rusiya) formulu yaratmaq təklifini irəli sürüblər. Üçtərəfli əlaqələrin inkişafına xidmət edəcək bu konsepsiya, həmçinin, Türkiyə və Rusiyadan informasiya texnologiyalarının transferi yolu ilə Azərbaycanda iqtisadi dəyəri olan böyük layihələrin həyata keçirilməsini nəzərdə tutur.

# AİB-dən maliyyə dəstəyi

Asiya İnkişaf Bankı (AİB) 2019-cu ilin ortalarınadək Azərbaycan üzrə yeni strategiyanın hazırlanmasını başa çatdıracaq. 2019-2023-cü illəri əhatə edən strategiyanın əsas istiqamətləri müxtəlif sahələrdə əməkdaşlığın davam etdirilməsini nəzərdə tutur. Bankın açıqladığı məlumata əsasən, 2019-2021-ci illərdə Azərbaycandakı müxtəlif infrastruktur və qeyri-neft sahələrinə 815 milyon dollar kreditin ayrılması nəzərdə tutulur.

AİB-in iqtisadçısı Albert Lov bildirib ki, Azərbaycan hökumətinin son illərdə həyata keçirdiyi islahatlar qeyri-neft sektorunun artımına təkan verib və bank qarşıdakı illərdə əsas diqqəti həmin sahəyə investisiya qoyuluşuna yönəldəcək. Eyni zamanda, respublikamızda aparılan institusional islahatlar, o cümlədən büdcə-fiskal-vergi sahəsində həyata keçirilən tədbirlər əməkdaşlığın əsas prioritetlərini təşkil edəcək.

Azərbaycanın Strateji yol xəritələri çərçivəsində icra olunan layihələrin maliyyələşdirilməsi də strategiya sənədində öz əksini tapacaq. Bundan başqa, AİB ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafına da maliyyə dəstəyi göstərmək niyyətindədir. Xüsusilə də kiçik biznesin kreditlərə əlçatanlığının təmin olunmasında institusional islahatlara dəstək veriləcək.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**2018-ci ilin yanvar-avqust aylarında...**

- Ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,5% artaraq **34.786,3 milyon** manat və ya əhalinin hər nəfərinə orta hesabla **3.548,1** manat təşkil edib.
- Dəniz nəqliyyatı ilə daşınmış yüklərin həcmi **5 milyon 559,7 min** ton təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,3% artım deməkdir.
- Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2017-ci ilin eyni dövrü ilə müqayisədə real ifadədə 2,8% artaraq **5.436,0 milyon** manata çatıb.
- Hazır metal məmulatlarının istehsalı sahəsində **18,2%**, metallurgiya sənayesində isə **13,4%** artım qeydə alınıb.
- Tikinti materialları istehsalı sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilmiş məhsulun ümumi dəyəri 31,7% artaraq **382,9 milyon** manat olub.
- Ölkədə fəaliyyət göstərən 21 sığorta şirkəti tərəfindən **517 milyon** manat məbləğində sığorta haqqı toplanılıb, **169 milyon** manat məbləğində isə sığorta ödənişi həyata keçirilib.

# Mənzil satışından tutulan vergi

## Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahəsini satan şəxslər vergi öhdəliklərini yerinə yetirməzsə...

2018-ci ilin yeddi ayı ərzində mənzil və qeyri-yaşayış sahəsinin alğı-satqısından dövlət büdcəsinə 22 milyon 875,3 min manat vergi ödənilib. Yanvar-iyul aylarında notariuslar tərəfindən təqdim olunmuş ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsinə əsasən, ölkənin regionları üzrə mənzil və mülklərin satışından ən çox vergi ödənişləri paytaxt Bakının payına düşür. Bu müddətdə yaşayış və qeyri-yaşayış sahələrinin alğı-satqısına görə fiziki və hüquqi şəxslər tərəfindən Bakı şəhəri üzrə vergi daxilolmalarının məbləği 18 milyon 50,8 min manat təşkil edib. Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan və Mingəçevirdən daxil olmuş vergilərin məbləği 928,2 min manat, Gəncə, Sumqayıt və Xırdalan üzrə 2.386,9 min manat, digər rayon (şəhər) və qəsəbələr (kəndlər) üzrə isə 1.509,3 min manat olub.

Xatırladaq ki, 2016-cı ildə bina tikintisi fəaliyyəti ilə məşğul olan və sadələşdirilmiş qaydada vergi ödəyən şəxslərin vergitutma bazası genişləndirilib. Vergi Məcəlləsinin 218-ci maddəsinə edilmiş dəyişikliklərə əsasən, mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslər 1 yanvar 2016-cı ildən etibarən sadələşdirilmiş vergiyə cəlb olunur. Həmin vəsaitlər notarius tərəfindən ödəmə mənbəyindən tutularaq dövlət büdcəsinə ödənilir. Vergi hesablanarkən alğı-satqı zamanı mənzilin neçəyə satılması heç bir əhəmiyyət daşımır. Fiziki şəxs mülkiyyətində olan yaşayış sahəsini satarkən, mənzilin satış qiymətindən asılı olmayaraq, hər kvadratmetrə görə 15 manat məbləğində sadələşdirilmiş vergi ödəməlidir. Satılan mənzil Bakı şəhəri, habelə onun qəsəbə və kəndlərində yerləşirsə, bu məbləğə Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş zonalardan asılı olaraq, əmsallar tətbiq olunur.

Cədvəldən də göründüyü kimi, mərkəzdən kəndlərə doğru mənzil satışı ilə bağlı verginin məbləği azalır.

| Zonalar | Zona əmsalı | Baza məbləği | Vergi məbləği |
|---|---|---|---|
| **BAKI ŞƏHƏRİ** | | | |
| Zona-1 | 4,0 | 15 manat | 60 manat |
| Zona-2 | 3,0 | 15 manat | 45 manat |
| Zona-3 və 4 | 2,2 | 15 manat | 33 manat |
| Zona-5 və 6 | 1,8 | 15 manat | 27 manat |
| Zona-7, 8 və 9 | 1,5 | 15 manat | 22,5 manat |
| Zona-10, 11 və 12 | 1,2 | 15 manat | 18 manat |
| **DİGƏR REGİONLAR** | | | |
| Gəncə, Sumqayıt və Xırdalan | 1,5 | 15 manat | 22,5 manat |
| Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan | 1,2 | 15 manat | 18 manat |
| Digər rayon (şəhər) və qəsəbələr (kəndlər) | 0,5 | 15 manat | 7,5 manat |

Beləliklə, Bakının mərkəzi hissəsində, yəni 1-ci zonaya aid ərazilərdə mənzil satılarkən onun hər kvadratmetrindən tutulan vergini hesablamaq üçün 15 manat baza məbləği 4-ə vurulmalıdır. Bununla da yaşayış sahəsi 100 kvadratmetr olan mənzilin satışı zamanı sadələşdirilmiş vergi məbləği bu cür hesablanmalıdır:

**100 $m^2$ (mənzilin sahəsi) x 15 manat (baza məbləği) x 4 (zona əmsalı) = 6 000 manat.**

### Mənzilin dəyişdirilməsi də vergiyə cəlb olunur

Yeri gəlmişkən, son illər Azərbaycanda mənzillərin barter üsulu ilə alğı-satqısına da maraq artıb. Xüsusən də daşınmaz əmlak agentlikləri vasitəsilə yayılan elanlarda mənzillərin barter üsulu ilə satışı, yəni dəyişdirilməsi təklif olunur. Hətta ölkənin müxtəlif şəhər və rayonlarında yerləşən mənzillərin paytaxda eyni növ mülkə dəyişdirilməsini təklif edənlər də var. Qanunvericiliyin tələblərinə görə, barter üsulu ilə alğı-satqı olunan mənzillərdən də eyni qayda ilə sadələşdirilmiş vergi tutulur. Bu zaman dəyişdirilən iki mənzil alğı-satqı obyekti sayıldığından, hər iki mülkün satıcı qismində çıxış edən sahibi müvafiq qaydada vergi ödəməlidir.

Qeyri-yaşayış sahələri olan zirzəmilərin satışından tutulan verginin məbləği də təxminən eyni qaydada hesablanır. Yeganə fərq ondadır ki, qeyri-yaşayış sahələrinin alğı-satqısı zamanı hesablanmış vergi məbləğinə əlavə olaraq 1,5 əmsal tətbiq edilir. Məsələn, 6-cı zonaya aid edilən metronun «Neftçilər» və ya «Koroğlu» stansiyaları ətrafında şəxsi mülkiyyətində olan 300 kvadratmetr zirzəmini satmaq istəyərkən mülk sahibi notarius vasitəsilə ödəyəcəyi sadələşdirilmiş vergini belə hesablamalıdır:

**300 $m^2$ (zirzəminin sahəsi) x 15 manat x 1,8 x 1,5 = 12 150 manat.**

Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə sadələşdirilmiş vergi alğı-satqı müqavilələrini təsdiq edən notarius tərəfindən hesablanaraq tutulur və 1 bank günü ərzində dövlət büdcəsinə ödənilir. Vəsaitin ödənilməsi barədə «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi» hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilir. Mənzillərin satışı zamanı vergi bəyənnaməsinin və arayışın təqdim edilməməsinə görə daşınmaz əmlakını satışa çıxaran fiziki şəxslərə qarşı 40 manat cərimə tətbiq olunur.

### Bu əmlakların təqdim edilməsi vergidən azaddır

Qeyd edək ki, bu qaydalar bina tikintisi fəaliyyəti üzrə sadələşdirilmiş verginin hesablanması və ödənilməsinə aid deyil. Yaşayış və qeyri-yaşayış sahələrinin satışı 2016-cı il yanvarın 1-dən, torpaq sahələrinin təqdim edilməsi isə 2017-ci il yanvarın 1-dən etibarən sadələşdirilmiş vergiyə cəlb olunur. Burada vergi torpağın, yaşayış və qeyri-yaşayış yerinin sahəsinə (ölçüsünə), yerləşdiyi əraziyə əsasən hesablanır.

Aşağıdakı hallarda torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi vergiyə cəlb olunmur:

- fiziki şəxsin azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi;
- daşınmaz əmlakın hədiyyə, maddi yardım və miras formasında ailə üzvləri tərəfindən verilməsi;
- daşınmaz əmlakın dövlət ehtiyacları üçün alınması ilə əlaqədar kompensasiyanın ödənilməsi;
- əmlakın ər və arvad arasında verilməsi, keçmiş ər-arvad arasında boşanma prosesində verilməsi.

**Elxan SALAHOV**

# Kiçik və orta biznesin inkişafı məqsədilə yeni mexanizmlər yaradılır

«Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə müəyyən edilmiş hədəflərə nail olunması, ölkə iqtisadiyyatında kiçik və orta sahibkarlığın rolunun artırılması, bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılması prioritet istiqamətlərdəndir. Ötən ilin sonunda dövlət başçısının müvafiq fərmanı ilə «Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin (KOB) İnkişafı Agentliyi»nin yaradılması da məhz həmin vəzifələrin icrasının təmin olunması məqsədini daşıyır.

Agentliyin qarşısına qoyulmuş vəzifələr arasında motivasiya tədbirləri mühüm yer tutur. Qurum kiçik və orta biznes subyektlərinin fəaliyyətini stimullaşdıran mexanizmlər vasitəsilə həm mövcud biznes subyektlərinin inkişafına, həm də yeni subyektlərin yaranmasına, eləcə də müasir çağırışların ölkə iqtisadiyyatına inteqrasiyasına təkan verməli, səlahiyyətli qurum kimi dövlət orqanlarında sahibkarların maraqlarını təmsil etməli, onların rastlaşdıqları problemlərin həllinə kömək göstərməlidir. Təhlillər göstərir ki, biznesin səmərəli təşkili və davamlı inkişafı, bir tərəfdən, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin səmərəliliyi ilə müəyyən edilirsə, digər tərəfdən, mövcud biznes mühitində iş adamlarının öz fəaliyyətlərinin düzgün təşkili ilə şərtlənir. Bu çərçivədə sahibkarların bilik və bacarıqlarının inkişafına yönəlik bir sıra dəstək xarakterli tədbirlər həyata keçirilir, onların xarici bazarlara çıxış imkanları genişləndirilir.

Agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədovun sözlərinə görə, beynəlxalq təcrübədə kiçik və orta sahibkarlara göstərilən xidmətlərin «bir məkan» prinsipi üzrə təşkili müsbət nəticələr verməklə yanaşı, eyni zamanda həmin xidmətlərin keyfiyyətinin təmin olunmasında mühüm rol oynayır. Məhz bu amillər nəzərə alınaraq, ölkənin rayon və şəhərlərində «biznes evləri»nin yaradılması planlaşdırılır. Əsas məqsəd sahibkar məmnunluğunu təmin etməklə bərabər, göstərilən xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsiplərinə uyğun aparılmasına nail olmaqdır.

Bu günlərdə Masallıda agentliyin nəzdində açılmış ilk regional Kiçik və Orta Biznesin Dostu xidmətinin missiyası və fəaliyyətinin başlıca istiqamətləri yeni KOB-ların yaranması, mövcud KOB-ların inkişafı vasitəsilə regionun inkişaf potensialının reallaşdırılmasına yönəldilib. Bu məqsədlə potensial investisiya layihələri müəyyən ediləcək və onların KOB-lar vasitəsilə həyata keçirilməsi təşviq ediləcək. Bütün ölkə üzrə təşkili nəzərdə tutulan «KOB dostları» şəbəkəsinin tam qurularaq səmərəli fəaliyyətinin təmin edilməsi planlaşdırılır.

İqtisadçı ekspert Pərviz Heydərovun sözlərinə görə, Agentliyin yaradılması özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafına verilən önəmin nəticəsidir: «Xüsusilə regionlarda «KOS evləri»nin təşkili, institusional dəstək mexanizmlərinin ölkənin bütün regionları üzrə təmini, bu sahədə fəaliyyət göstərən sahibkarlar üçün zəruri olan bütün xidmətlərə vahid məkandan rahat çıxış imkanının yaradılması vacib amildir. Yerlərdə potensial investisiya layihələrinin müəyyən edilməsi və onların təşviqi baxımından «KOB dostları» əhəmiyyətli rol oynayacaq: sahibkarların hüquqlarının müdafiəsi istiqamətində fəaliyyətlə yanaşı, onların ehtiyaclarını öyrənməklə dəstək xarakterli tədbirlər həyata keçiriləcək».

**Fəxriyyə İKRAMQIZI**

## BİR CÜMLƏ - BİR XƏBƏR

«TurStat» analitik agentliyi rusiyalı turistlərin payız səyahəti üçün Müstəqil Dövlətlər Birliyində ən populyar şəhərlərin üçlüyünə Bakını da daxil edib.

Gələn ay Macarıstanın paytaxtı Budapeşt şəhərində Azərbaycan səfirliyinin təşkilatçılığı ilə «Made in Azerbaijan» adlı ikigünlük işgüzar-mədəni tədbir keçiriləcək.

Azərbaycan Banklar Assosiasiyası noyabrın 15-16-da Bakıda «Nağdsız iqtisadiyyat: ənənəvi banklardan rəqəmsal bankçılığa keçid» mövzusunda III Bankçılıq Forumu keçirməyi planlaşdırır.

Oktyabrın 1-də Qazaxıstanın Almatı, oktyabrın 4-də isə Çimkənt şəhərlərində Azərbaycan-Qazaxıstan iş adamlarının görüşü keçiriləcək.

«Caspian Energy Forum»un bu il noyabrın 30-da Berlində və gələn il martın 15-də İstanbulda keçirilməsi nəzərdə tutulur.

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan 2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan 5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan 25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# İmtiyazlı vətəndaşlar üçün vergi güzəştləri

## *Muzdla işləyən imtiyazlı şəxslərin əməkhaqqına vergi güzəşti tətbiq olunur*

**Sosial müdafiəyə ehtiyacı olan imtiyazlı şəxslərin əməkhaqqından tutulan vergilərin faiz dərəcələrində və hesablanmasındakı güzəştlər bu mövzuda sualları xeyli aktuallaşdırıb. Mövcud qanunvericiliyə əsasən, əlillərə, müharibə veteranlarına, məcburi köçkünlərə və digər imtiyazlı şəxslərə muzdlu işçi kimi əməkhaqqından vergi güzəştləri tətbiq olunur.**

Bəs, həmin təbəqədən olan işçilərin maaşından nə qədər vergi tutulmalıdır? Bəri başdan deyək ki, Vergi Məcəlləsinə əsasən, aylıq gəlir 2500 manata qədər olduqda 14 faiz, 2500 manatdan yüksək olduqda 2500 manata qədər olan hissəsinin 14 faizi, 2500 manatdan yuxarı olan hissənin 25 faizi miqdarında vergi tutulur. Əməkhaqqı 2500 manata qədər olduqda həmin ödənişlərin ölkə üzrə yaşayış minimumu (2018-ci il üçün yaşayış minimumu ölkə üzrə 173 manat, əmək qabiliyyətli əhali üçün 183 manat, pensiyaçılar üçün 144 manat, uşaqlar üçün 154 manat məbləğində müəyyən edilib) çıxıldıqdan sonra qalan məbləğdən 14 faiz gəlir vergisi tutulur. İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən əməkhaqqından ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir.

Sosial zümrəsindən asılı olmayaraq, əmək müqaviləsi əsasında işləyən bütün işçilər onlara hesablanmış əməkhaqqının 3 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəməlidir. Həmçinin işəgötürən tərəfdən hər bir işçiyə onun aldığı əməkhaqqının 22 faizi həddində sosial sığorta haqqı hesablanaraq Dövlət Sosial Müdafiə Fonduna (DSMF) köçürülməlidir. Bu məbləğ işçinin aldığı əməkhaqqından deyil, işəgötürənin öz hesabından ödənilməlidir.

**Əmək müqaviləsi ilə işləyən hər bir vətəndaş «E-hökumət» Portalında şəxsi kabinetini yaratmaqla işlədiyi illər ərzində öz fərdi hesabında toplanmış sosial sığorta haqları barədə məlumat əldə edə bilər**

İmtiyazlı vətəndaşların muzdlu işçi kimi aldığı əməkhaqqına tətbiq edilən vergi güzəştlərinə gəlincə, bu, həmin işçilərin sosial koteqoriyasından asılı olaraq dəyişir. Belə ki, Vergi Məcəlləsinin 102-ci maddəsinə əsasən, bəzi kateqoriyadan olan işçilərin əməkhaqqından gəlir vergisi güzəştlə tutulur. Milli qəhrəmanların, müharibə əlillərinin, müharibə veteranı adı almış şəxslərin və s. vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır. Buraya Sovet İttifaqı və Sosialist Əməyi qəhrəmanları, 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslər, həlak olmuş, yaxud sonradan vəfat etmiş döyüşçülərin dul arvadları (ərləri), Çernobıl AES-də qəza, mülki və ya hərbi təyinatlı atom obyektlərində radiasiya nəticəsində şüa xəstəliyinə və şüa yükü ilə əlaqədar xəstəliyə tutulmuş və ya bu xəstəlikləri keçirmiş şəxslər də daxildir. Bundan başqa, I və II qrup əlillərin (müharibə əlilləri istisna olunmaqla), sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 200 manat, məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin vergi tutulmalı olan aylıq gəliri 100 manat məbləğində azaldılır. Bu güzəşt, mənzil qanunvericiliyinə və ya mülki-hüquqi əqdlərə əsasən, ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmış şəxslərə şamil olunmur.

Muzdla işləyən aşağıdakı şəxslər də bu güzəştlərdən istifadə etmək hüququna malikdirlər:

- Həlak olmuş, yaxud sonradan vəfat etmiş döyüşçülərin valideynləri, habelə vəzifələrinin icrası zamanı həlak olmuş dövlət qulluqçularının valideynləri və arvadları (ərləri). Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar;
- 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin valideynləri və arvadları (ərləri). Bu şəxslərin arvadlarına (ərlərinə) güzəşt o halda verilir ki, onlar təkrar nikaha girmiş olmasınlar;
- Əfqanıstana və döyüş əməliyyatları aparılan başqa ölkələrə göndərilmiş hərbi qulluqçular və ya təlim-yoxlama toplanışlarına çağırılmış hərbi vəzifəlilər;
- Daimi qulluq tələb edən sağlamlıq imkanları məhdud uşağa və ya I qrup əlilə baxan və onunla birlikdə yaşayan valideynlərdən biri (özlərinin istəyi ilə), arvad (ər), himayəçi və ya qəyyum.

Fiziki şəxsin bu güzəştlərin bir neçəsi üzrə imtiyaz hüququ olduqda, ona həmin güzəştlərdən biri, məbləğcə ən böyük olanı verilir.

Bundan başqa, qohumluq dərəcəsindən asılı olmayaraq himayəsində azı üç nəfər, o cümlədən gündüz təhsil alan 23 yaşınadək şagirdlər və tələbələr olan ər və ya arvaddan birinin vergi tutulmalı olan aylıq gəliri 50 manat məbləğində azaldılır. Bu qayda uşaqların 18 yaşa, tələbələrin və şagirdlərin 23 aşa çatdığı ilin sonunadək, habelə uşaqların və himayədəkilərin öldüyü hallarda ölüm ilinin sonunadək saxlanılır.

Vergi Məcəlləsinin 102.8-ci maddəsinə görə, əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin bu maddədə sadalanan vergi güzəştləri hüququ Nazirlər Kabineti tərəfindən müəyyənləşdirilmiş sənədlərin təqdim edildiyi andan yaranır və yalnız fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) həyata keçirilir. Həmçinin Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli Qərarı ilə təsdiq edilmiş «Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı»nın 1.9-cu bəndinə əsasən, I və II qrup əlillərin (müharibə əlillərindən başqa) güzəşt hüququ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbəsinin arayışı və tibbi-sosial ekspert komissiyasının rəyi və ya arayışı əsasında müəyyənləşdirilir.

**Elxan SALAHOV**

### 2018-ci ilin oktyabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin sentyabr ayı üzrə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin oktyabr ayının 22-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi notariuslar tərəfindən **cari ilin oktyabr ayının 22-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2018-ci ilin 3-cü rübünə görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- **Sadələşdirilmiş verginin bəyannaməsini** və
- **Ödəmə mənbəyində tutulan vergi bəyannaməsini**

cari ilin **oktyabr ayının 22-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və rüb üzrə hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi** *(ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olunmaqla)* cari ilin **oktyabr ayının 22-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və sentyabr ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir *(ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri bəyannaməni illik - növbəti ilin yanvar ayının 31-dən gec olmayaraq təqdim edirlər)*.
- **Xüsusi notariusların gəlir vergisi bəyannaməsi** cari ilin **oktyabr ayının 22-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və sentyabr ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
- **Dövlət rüsumu haqqında hesabat** cari ilin **oktyabr ayının 22-dək** vergi orqanına təqdim edilməlidir; notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək **2 bank günü**, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu **1 ay**, digər dövlət rüsumları isə tutulduqdan sonra **1 bank günü** ərzində dövlət büdcəsinə köçürülməlidir.

**Gəlir və mənfəət vergisi ödəyiciləri tərəfindən**

2018-ci ilin **3-cü rübü üzrə hesablanmış** cari ödəmələr **oktyabr ayının 15-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir.

**Qeyd:** 20.10.2018-ci il tarixi qeyri-iş gününə təsadüf etdiyindən, 2018-ci ilin sentyabr ayı və 3-cü rübü üzrə bəyannamələrin təqdim edilməsinin və vergilərin ödənilməsinin son müddəti 22.10.2018-ci il tarixinə keçirilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Sadələşdirilmiş vergi

(Təqdim olunan məlumatlar sərnişin və yük daşıması, daşınmaz əmlakın təqdim edilməsi, bina tikintisi fəaliyyətləri və aylıq sabit vergi dərəcələri üzrə sadələşdirilmiş verginın hesablanması və ödənilməsini əhatə etmir).

### Sadələşdirilmiş verginin ödəyiciləri kimlərdir?

İdman mərc oyunlarının operatoru və satıcıları, mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsilə həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir.

Həmçinin, mülkiyyətində olan torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən şəxslər (fiziki şəxsin azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələri, torpaq, yaşayış və qeyri-yaşayış sahəsi hədiyyə, maddi yardım və miras kimi vergi ödəyicisinin ailə üzvlərindən alındığı, ər və arvad (və ya keçmiş ər-arvad) arasında verildiyi hallar və torpaqların dövlət ehtiyacları üçün alınmasına görə ödənilən kompensasiyalar istisna olmaqla), fəaliyyətləri zamanı işçi cəlb edən fiziki şəxslər istisna olmaqla, toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət, fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla) sahəsində fəaliyyət, çəkməçi, pinəçi, saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri, fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşbaz, gözətçi və digər analoji işlər, nəqqaşlıq emalatxanalarının fəaliyyəti ilə məşğul olan şəxslər (aylıq sabit vergi məbləği üzrə) də sadələşdirilmiş verginin ödəyiciləri sırasına daxildirlər.

Qeyd: Sadələşdirilmiş vergini ödəyən hüquqi şəxslər ƏDV-nin, mənfəət vergisinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyət üzrə gəlir vergisinin və ƏDV-nin ödəyiciləri deyil.

### Sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququna malik şəxslər:

- ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manat və ondan az olan şəxslər.
- vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər.
- bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər.

### Sadələşdirilmiş verginin ödəyicisi ola bilməzlər:

Aksizli mallar istehsal edən şəxslər, kredit və sığorta təşkilatları, investisiya fondları və bu fondların idarəçiləri, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər, lombardlar, qeyri-dövlət pensiya fondları, əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edənlər, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş təbii inhisar subyektləri, mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə qalıq dəyəri 1.000.000 manatdan artıq olan publik hüquqi şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququna malik deyillər.

### Sadələşdirilmiş verginin dərəcəsi

Sadələşdirilmiş vergi - bu verginin ödəyicilərinin malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdiyi vəsaitin məbləğindən (ümumi hasilatının həcmindən) və satışdankənar gəlirlərdən Bakı şəhərində - 4 faiz, digər şəhər və rayonlarda, Naxçıvan MR-da - 2 faiz dərəcə ilə hesablanır.

Azərbaycan Respublikasının şəhər və rayonlarında, Naxçıvan MR-də vergi uçotuna alınmış, lakin özünün istehsal sahəsi, daşınmaz əmlakı və işçi qüvvəsi ilə Bakı şəhərində fəaliyyət göstərən sadələşdirilmiş verginin ödəyiciləri vergini Bakı şəhəri üzrə müəyyən edilmiş vergi dərəcələri ilə ödəyirlər. Bakı şəhəri istisna olmaqla, Azərbaycan Respublikasının digər şəhər və rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən vergi ödəyicilərinə bu regionlar üzrə müəyyən edilmiş vergi dərəcəsi o halda tətbiq edilir ki, vergi ödəyicisi özünün istehsal sahəsi, daşınmaz əmlakı və işçi qüvvəsi ilə həmin ərazilərdə fəaliyyət göstərmiş olsun.

Müxtəlif vergi dərəcələri ilə vergiyə cəlb edilən gəlirlər üzrə uçot ayrı-ayrılıqda aparılmalıdır. Belə uçot aparılmadıqda ən yüksək vergi dərəcəsi tətbiq edilir.

Vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan sadələşdirilmiş vergitutma metodunu seçmiş ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olanlar üçün vergi onların fəaliyyət göstərdiyi ərazidən asılı olmayaraq ticarət fəaliyyəti üzrə - 6 faiz, ictimai iaşə fəaliyyəti üzrə - 8 faiz dərəcə ilə hesablanır.

İdman mərc oyunlarının operatoru tərəfindən oyun iştirakçılarından qəbul edilmiş vəsaitdən 6 faiz dərəcəsi ilə, idman mərc oyunlarının satıcısı tərəfindən isə operatorun ona verdiyi komisyon haqdan 4 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.

### Verginin hesablanması, ödəmə müddəti və bəyannamənin verilməsi qaydası

Sadələşdirilmiş vergi üçün hesabat dövrü rübdür. Hesabat rübü üçün sadələşdirilmiş verginin məbləği müəyyən edilmiş vergi dərəcələrini rüb ərzində təqdim edilmiş mallara (işlərə, xidmətlərə) və əmlaka görə əldə edilmiş ümumi hasilatın, habelə satışdankənar gəlirlərin həcminə (ödəmə mənbəyində vergi tutulmuş gəlirlər, məsələn faizlər, dividendlər istisna edilməklə) tətbiq edilməklə hesablanır.

İdman mərc oyunlarının operatoru vergini hesabat rübü ərzində oyun iştirakçılarından qəbul edilmiş pul vəsaitinə, idman mərc oyunlarının satıcıları isə operatorun onlara verdiyi komisyon haqqına müvafiq vergi dərəcəsini tətbiq etməklə hesablayır.

Sadələşdirilmiş verginin ödəyiciləri, o cümlədən idman mərc oyunlarının operatoru və satıcıları hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanlarına bəyannamə verir və həmin müddətdə hesablanmış vergini dövlət büdcəsinə ödəyirlər.

Sadələşdirilmiş vergi ödəyicisi fəaliyyətini dayandırdıqda, habelə hüquqi şəxs ləğv edildikdə və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildikdə, hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına faktiki fəaliyyət göstərilən dövrü əhatə edən bəyannamə təqdim edilməlidir.

Sadələşdirilmiş verginin ödəyiciləri olan hüquqi şəxslər balansında olan əmlakın orta illik qalıq dəyərindən əmlak vergisi hesablamalı, hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq bəyannamə təqdim etməklə cari ödəmələr nəzərə alaraq hesablanmış vergini dövlət büdcəsinə ödəməlidirlər.

### Maliyyə sanksiyaları və faizlər

Sadələşdirilmiş vergi ödəyicilərinə vergi qanunvericiliyinin pozulması hallarına görə Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq maliyyə sanksiyaları və faizlər tətbiq edilir.

**Fəxriyyə İKRAMQIZI**


## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin **«195-1»** Çağrı Mərkəzinə, **ww.taxes.gov.az** və **www.asxm.gov.az** internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Gürcüstanın iqtisadi artım proqnozu yaxşılaşıb

Beynəlxalq Valyuta Fondunun (BVF) missiyası Gürcüstan hökumətinə apardığı iqtisadi islahatları davam etdirməyi tövsiyə etmişdir. Fondun ekspertlərinin fikrincə, bu, daha yüksək və uzunmüddətli artımın, eləcə də iqtisadi sabitliyin güclənməsi üçün əlverişli şərait yaradacaq.

BVF missiyasının Gürcüstana səfərinin nəticələrinə həsr edilmiş press-relizdə göstərilmişdir ki, ölkə iqtisadiyyatı gözləniləndən daha yüksək templərlə inkişaf edir. Missiyanın rəhbəri xanım Mersedes Vera-Martinin sözlərinə görə, iqtisadi fəallıq 2018-ci ilin ilk yarısında daha yüksək olmuşdur. İlin ilk altı ayı ərzində ümumi daxili məhsulun (ÜDM) 5,7 faizə çatmasına şərait yaradan amillər sabit xarici tələbat, pul köçürmələri və kreditləşmənin artımı olmuşdur. Xanım Vera-Martin qeyd etmişdir ki, rəhbərlik etdiyi missiya ÜDM artımı ilə bağlı öz ilkin proqnozuna da yenidən baxmış, 2018-ci il üçün gözlənilən artımı 4,8 faizdən 5,5 faizə qaldırmışdır. «Digər ölkələrin iqtisadiyyatında mənfi tendensiyaların güclənməsi, ticarət sahəsində baş verən qlobal təmayüllər şəraitində ehtiyatları gücləndirmək və mübadilə kursunun arasıkəsilməz çevikliyini təmin etmək xarici təlatümlərə qarşı sabitliyi gücləndirən ölkə iqtisadiyyatına sərf etmişdir», - BVF missiyasının yaydığı rəsmi açıqlamada bildirilmişdir. .

Missiyanın Gürcüstana növbəti səfəri oktyabrda olacaq və səfər zamanı fondun üçüncü hesabatı müzakirə ediləcək. Gürcüstanın maliyyə naziri İvane Maçavariani BVF-nin ölkə iqtisadiyyatı ilə bağlı proqnozunu yaxşılaşdırmasını böyük nailiyyət adlandırmışdır.

Gürcüstanda iqtisadi islahatların dəstəklənməsinə yönəldilmiş yeni üçillik proqramı BVF 2017-ci ilin aprelində təsdiqləmişdir. Tərəflər arasındakı razılaşmaya əsasən, Gürcüstana islahatlar çərçivəsində 297,5 milyon ABŞ dolları məbləğində vəsait ayrılmalıdır. Artıq bu vəsaitin 125 milyonu əvvəlcədən alınmışdır. İki il ərzində dörd yarımillik icmalın uğurla başa çatacağı halda, Gürcüstan qalan məbləği də əldə edə biləcək.

# İngiltərədə Aİ vətəndaşlarına fərq qoyulması aradan qaldırılır

MAC adlı məsləhətçi qurum tərəfindən hazırlanmış hesabatda İngiltərənin Avropa İttifaqından (Aİ) ayrılmasından sonra ölkə iqtisadiyyatına töhfə verəcək ixtisaslı işçilər üçün əcnəbilərin ölkəyə gəlişinin asanlaşdırılması təklif edilmişdir. İngiltərə hökumətinə tövsiyə səciyyəsi daşıyan hesabatda Avropa ölkələrindən gələnlərə məşğulluq bazarında üstünlük verilməsinin isə keçid prosesindən sonra başa çatdırılmasının zəruri olduğu qeyd edilmişdir.

Hesabatda İngiltərənin Aİ üzvü olmayan ölkələrdən qəbul etdiyi yüksək səriştəli köçkünlər üçün tətbiq etdiyi illik 20 min 700 nəfər kvotasının ləğv edilməsinin zəruri olduğu da göstərilmişdir. Hesabata əsasən, İngiltərəyə Aİ ölkələrindən gələn mühacirlərin ödədikləri verginin məbləği aldıqları sosial yardımlardan daha çoxdur. Sənəddə Aİ ölkələrindən gələn köçkünlərin ölkənin səhiyyə sistemi üçün təmin etdikləri işçi qüvvəsinin də İngiltərə iqtisadiyyatı üçün faydalı olduğu göstərilmişdir.

Qeyd olunan hesabatla bağlı İngiltərənin Daxili İşlər Nazirliyindən verilmiş açıqlamada bildirilmişdir: «İqtisadiyyatımızda Aİ ölkələri vətəndaşlarının önəmli və müsbət rol oynadıqları barədə hökumətin mövqeyi aydındır. Aİ-dən çıxandan sonra da biz bunun davam etməsini istəyirik».

# Rusiyanın qeyri-neft gəlirləri artır

2019-2021-ci illər üçün hazırlanmış federal büdcə layihəsində qeyd edilmişdir ki, Rusiyanın Maliyyə Nazirliyi qeyri-neft və qaz gəlirlərinin ÜDM-dəki payının 2018-ci il üzrə 9,9 faizlik göstəricidən 2021-ci ildə 10,9 faizə çatdırılacağını proqnozlaşdırır.

İrəli sürülən proqnozlara əsasən, büdcənin ümumi gəlirlərində qeyri-neft sektorunun payı 2018-ci ildən 2021-ci ilə qədər 53,5 faizdən 61,7 faizə yüksəldilməlidir.

Büdcənin neft-qaz gəlirlərinin ÜDM-dəki 2019-cu il üzrə 7,8 faizlik payının isə 2021-ci ilə qədər azalıb 6,8 faizə düşəcəyi gözlənilir. Qeyd edək ki, neft-qaz gəlirlərinin göstəriciləri neftin bir bareli üçün 2019-cu il üzrə 41,6 dollar, 2020-ci il üzrə 42,4 dollar, 2021-ci il üzrə isə 43,3 dollar baza qiymətinə əsasən hesablanmışdır.

# ÜDM-in 8 faizini vergilər təşkil edir

İranın Milli Vergi Administrasiyası (INTA) cari İran təqvim ilinin ilk dörd ayı ərzində (2018-ci il martın 21-dən iyulun 22-dək) 360 trilyon riyal (təxminən 8,57 milyard ABŞ dolları) vergi yığmışdır. INTA sədrinin müavini Nadir Cənnəti bildirmişdir ki, bu dövr üçün hədəf göstərici 470 trilyon rial (11,19 milyard dollar) təşkil edirdi, lakin vergi orqanları bu vəzifəni yerinə yetirə bilməmişdir.

İran Mərkəzi Bankının nəşr etdirdiyi son göstəricilərə əsasən, keçən təqvim ili ərzində ölkənin vergi gəlirləri 14,1 faiz artaraq 27,3 milyard dollara çatmışdır.

İran hökuməti büdcəni müxtəlif mənbələrdən, o cümlədən əsaslı aktivlər təklif etmək və özəl sektora maliyyə aktivlərini özgələşdirməklə əldə edilən gəlirlərdən formalaşdırır. INTA-nın rəhbəri Kamal Təqavinecatın sözlərinə görə, ölkənin ÜDM-də vergi daxilolmalarının payı 8 faiz təşkil edir. Qəbul edilmiş plana əsasən, bu göstərici növbəti beşilliyin sonuna (2021-ci ilin mart ayı) kimi 11 faizə çatmalıdır. İran Prezidenti Həsən Puhaninin iqtisadi strategiyası hökumətin neftdan asılılığının əsaslı şəkildə azaldılmasını və vergilərin daha sistemli yığılmasını əhatə edir.

# Türkiyədə yeni iqtisadi proqram təqdim edilib



Ölkənin xəzinə və maliyyə naziri Berat Albayrak 2019-2021-ci illəri əhatə edən üçillik yol xəritəsi ilə bağlı açıqlama vermişdir. Tarazlaşdırma, intizam və dəyişmə kimi üç təməl üzərində qurulacaq «Yeni iqtisadi proqram» adlı sənəddə bu il üçün iqtisadi artımın 3,8 faiz, gələn il üçünsə 2,3 faiz nəzərdə tutulmuşdur. Sənəddə inflyasiya proqnozları 2018-ci il üçün 20,8 faiz, 2019-cu il üçünsə 15,9 faiz müəyyənləşdirilmişdir.

Proqrama əsasən, dövlət maliyyəsinin prioritet hədəfləri mal və xidmətlər, sərmayə, iri investisiyalar, cari transfer və faiz xərclərinin azaldılması, eləcə də gəlirlərin artırılması olacaq. Nağd və vergi təşviqləri başda olmaqla, təşviq mexanizmlərinin hamısına yenidən baxılacaq, onlar bütövləşdirilmiş, sadə və səmərəli hala gətiriləcək. Təşviqlərin mikroiqtisadi hədəflərə və büdcəyə uyğunluğu təmin ediləcək. Davamlı xarakter daşımayan və konyuktur baxımından həssas gəlirlərin yaratdığı müvəqqəti qaynaqlara əsasən daimi mahiyyətli xərclərin yaranmasına yol verilməyəcək.

Dönər valyuta ilə sərmayə qoyulan əməliyyatların büdcə intizamı daxilində açıq, şəffaf və hesabatlılıq şərtlərinə əsaslanan idarəetmə və maliyyə fəaliyyətləri üzrə tənzimlənməsi aparılacaq. Dövlət mənbələrindən xərclənən vəsaitlərin izlənilməsini asanlaşdıracaq, şəffaflığı və hesabatlılığı artıracaq proqram çərçivəsində icraya əsaslanan büdcə həyata keçiriləcək. Vergi bazasının genişləndirilməsi və vergi sistemində ədalətin gücləndirilməsi məqsədilə səmərəsiz azadetmə, güzəşt və endirimlər mərhələli şəkildə ləğv olunacaq, vergi qanunvericiliyi təkmilləşdiriləcək.

Vergi Məlumatlarının Təhlili Mərkəzinin qurulması ilə vergi yığımında fəallığın artırılması və vergidən yayınma hallarının azaldılması təmin ediləcək.

Vergi ödəyicilərinə xidmət mərkəzinin fəallığının artırılması, həyata keçirilən «İnteraktiv vergi dairəsi» layihəsi ilə elektron xidmətlərin göstərilməsi, eləcə də kiçik vergi ödəyicilərinin vergi qeydiyyatının elektron mühitdə aparılması ilə könüllü vergi ödəmələrinin səviyyəsinin yüksəldilməsinə şərait yaradılacaq.

Bundan başqa, dəbdəbəli və ya idxal tələbatı yüksək olan məhsulların siyahısı yenilənərək vergi tənzimlənməsi həyata keçiriləcək. Daşınmaz əmlakın qiymətləndirilməsi qurumu yaradılacaq və inventarlaşdırma işləri başa çatdırılacaq. Dövlət qeydiyyatı xərclərinin və əmlak vergisinin əmlakın real dəyərindən tutulması təmin ediləcək və əmlak vergisi sistemi təkmilləşdiriləcək.

Yenidənqurma planı nəticəsində əmələ gələcək əlavə dəyər artımlarından dövlətə real miqyasda pay verilməsi və artımların ədalətli şəkildə bölüşdürülməsi təmin ediləcək. Dövlət və özəl sektor arasındakı əməkdaşlığın daha fəal və maliyyə baxımından əlverişli olması üçün müvafiq model yaradılacaq. Maliyyə cəhətdən davamlılığı təmin etmək və dövlət maliyyəsindən asılılığı azaltmaq üçün sosial sığorta sistemi daha da təkmilləşdiriləcək.

# Rusiyada vergi və gömrük orqanları məlumat mübadiləsini gücləndirir

Baş nazirin birinci müavini Anton Sulianov bildirmişdir ki, gələcəkdə büdcə gəlirlərinin yığımının artırılması vergi və gömrük ödənişlərinin idarə edilməsinin vahid mexanizminə əsasən həyata keçirilməlidir. Qeyd olunmuşdur ki, Federal Vergi və Federal Gömrük xidmətlərinin vahid informasiya bazasının yaradılması bu iki qurumun fiziki birləşdirilməsi barədə müzakirə edilən məsələni avtomatik olaraq gündəlikdən qaldırır.

Gömrük bəyannamələri, ölkədən çıxarılan mallar, gömrük ödənişləri sahəsindəki borclar və vergi qanunvericiliyinin pozulması ilə bağlı məlumatların mübadiləsi hər iki qurumun əməkdaşlarına sahibkarlar barədə bütöv məlumat bazası yaratmağa, sahibkarları öz öhdəliklərinə nə dərəcədə vicdanla yanaşdıqları baxımından qruplaşdırmağa imkan verir.

Bu il gömrük xidməti vergi orqanlarına mallar üçün verilmiş 3 milyon bəyannamə, eləcə də Avrasiya İqtisadi Birliyindən kənara çıxarılmış mallar haqqında 11 milyon məlumat təqdim etmişdir. Vergi orqanları isə gömrük xidmətinə gömrük borcunu ödəməmiş xarici iqtisadi fəaliyyət iştirakçılarının bank hesabları ilə bağlı 7 milyon, həmçinin vergi qanunvericiliyinin pozulması ilə bağlı 1 milyon məlumat göndərmişdir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.İki üzü bərabər və uyğun tərəfləri paralel çoxbucaqlı, qalan üzləri paraleloqram olan çoxüzlü (cisim); 2.Nazik bağırsağın iltihabı; 3.Yerin dərin qatlarında yüksək temperatur və təzyiq şəraitində əmələ gələn mürəkkəb tərkibli od kütləsi; 4.Şərqi Afrikada dənizə çıxışı olmayan ölkə; 5.Tatarıstan Respublikasından keçən çay; 6.Sovet televizor markası; 9.Ədəbi dil üçün qəbul edilmiş vahid və düzgün yazı sistemi; 13. Gülçiçəyikimilər fəsiləsinin gavalı cinsinə aid bitki növü; 15.Dörd dövlətin ərazisində Pollesk aranlığında yerləşən mədəni-tarixi və fiziki-coğrafi vilayət; 16.Xalq artisti, «Ögey ana» filmində baş rollardan birini oynamış aktrisanın adı; 17.Böyük Britaniyada şəhər; 18.Müntəzəm olaraq uzaq səfərlərə çıxan iri və sürətli nəqliyyat gəmisi; 20.Şərqi və Cənubi Asiyanın bəzi ölkələrində, həmçinin Cənubi Afrikada kiçik ikitəkərli arabaya qoşulub minik və yük aparan adam; 21.Üst paltar üçün naxışlı yun parça.

**Soldan sağa:** 1.Hər hansı bir qanunun, qərarın giriş hissəsi; 5.Ayaq üstə yemək yeyilən, və ya içki içilən kiçik yeməkxana, qəlyanaltıxana; 7.Azərbaycan Respublikasının dövlət təltiflərindən biri (orden); 8.Reaktiv atəş sistemi (silah); 10.Poçt ödəniş nişanı. Həmçinin bir sıra ölkələrdə pul vahidi; 11.Xarici bazarlarda rəqibləri aradan çıxarmaq məqsədilə malların maya qiymətindən və daxili bazardakından daha ucuz satılması; 12.Hamar, parlaq ipək parça; 14.Müxtəlif növ və quruluşlu, işıq verən cihaz; 19.Qanıx çayının sol qolu. Oğuz, Şəki və Qax rayonları ərazisindən axır; 21.Dalğalı şəklində bir neçə mətbəə nişanının adı; 22.RF-nin Tambov vilayətində çay; 23.İngilis komediya aktyoru və yazıçısının soyadı. Daha çox «Cənab Bin» adlı komediya serialında oynadığı rola görə tanınır; 24.Ən yüksək, ən yaxşı, ən gözəl; 25.Klinometr - Yer səthinin mailliyini ölçən cihaz. Son vaxtlar avtomobillərdə daha çox istifadə olunur.



*İngilis komediya aktyoru və yazıçısının soyadı. Daha çox «Cənab Bin» adlı komediya serialında oynadığı rola görə tanınır.*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Dikson; 2.Kantata; 3.Omaha; 4.Alqama; 5.Velür; 6.Toğrul *(Nərimanbəyov)*; 9.Ahva; 13.Emki; 15.Vilayət; 16.Freska; 17.Ənzəli; 18.Nitrat; 20.Bahar; 21.Serer. **Soldan sağa:** 1.Doktorant; 5.Vit; 7.Kontanqo; 8.Alığ; 10.Osaka; 11.Maharlu; 12.Vazeh *(Mirzə Şəfi)*; 14.Halva; 19.Rubikon; 21.Selfi; 22.Səhm; 23.Şəhriyar; 24.Akr; 25.Prioritet.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

idman

# Dünya çempionatı yekunlaşmaq üzrədir

Bakıdakı Milli Gimnastika Arenasında cüdo üzrə dünya çempionatı davam edir. Sentyabrın 27-də yekun vurulacaq çempionatda hazırkı vəziyyətdə 21 ölkənin idmançıları mükafatçılar sırasında yer alıblar. 125 ölkədən 800-dək cüdoçunun mübarizə apardığı mundialda Yaponiya millisi 13 medalla (5-5-3) komanda hesabında birinci pillədə qərarlaşıb. Fransa seçməsi (1-1-2) ikinci, Koreya Respublikası (1-0-1) isə üçüncü yerdədir.

Təəssüf ki, sentyabrın 20-dən start götürən dünya çempionatında Azərbaycan idmançıları cəmi bir bürünc medalla kifayətləniblər. Heyətində Nicat Şıxəlizadə, Rüstəm Orucov, Məmmədəli Mehdiyev, Elmar Qasımov və s. kimi tanınmış cüdoçularımız bir-birinin ardınca məğlubiyyətə düçar olublar. Yalnız 73 kiloqram çəki dərəcəsində təmsilçimiz Hidayət Heydərovun bürünc medal əldə etməsi yığmamızın ümumi sıralamada 14-cü pillədə qərarlaşmasına səbəb olub.

Ümid edirik ki, hələ mübarizəyə qoşulmamış cüdoçularımız çempionatın son günlərində idmansevərlərimizə qələbə sevinci bəxş edə biləcəklər.

# Hərbçilərimiz də futbol oynayacaq

Azərbaycan Ordusu üzrə keçirilən futbol birinciliyinə start verilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, yarış iştirakçıları əvvəlcə hərbi hissədə ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq, ulu öndərin və şəhidlərin xatirəsini yad ediblər.

Yarışı açıq elan edən Müdafiə Nazirliyinin Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin zabiti, polkovnik Sadiq Paşayev son illər ölkəmizdə idmanın inkişafına göstərilən qayğıdan danışaraq bildirib ki, Ali Baş Komandan İlham Əliyev tərəfindən ölkəmizdə idmanın inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir və Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Ordu idmançıları da uğur və qələbələri ilə bir çox beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edirlər.

AFFA-nın hakimlər komitəsi üzvlərinin idarə etdiyi futbol birinciliyində qoşun növləri, hərbi hissə və birləşmələrdən 13 komanda iştirak edir. Yekunda yarışın qaliblərinə fəxri fərmanlar, mükafatlar, qalib komandaya isə kubok təqdim olunacaq.

# O da vergidən yayındığı üçün «ilişdi»...



Madridin «Real» futbol komandasının yarımmüdafiəçisi Luka Modriç vergi problemi ilə bağlı məhkəmə qarşısına çıxıb. Xorvat futbolçuya 2013-2014-cü illərdə vergidən yayındığı üçün 8 aylıq şərti həbs cəzası verilib. Məhkəmənin qərarına əsasən, o, dövlət büdcəsinə cərimə ilə birlikdə ümumilikdə 1,2 milyon avro pul köçürməlidir. 32 yaşlı yarımmüdafiəçi artıq bu məbləğin bir hissəsini ödəyib. Xatırladaq ki, bundan öncə ulduz futbolçular - Lionel Messi, Kriştiano Ronaldo, Marselo və məşqçi Joze Maurinyo da eyni səbəbdən İspaniyada məhkəməlik olmuşdu.

Maraqlıdır ki, cəmi iki gün əvvəl Luka Modriç ötən ilin ən yaxşı futbolçusu kimi FIFA-nın təsis etdiyi mükafata sahib olub. O, səsvermə nəticəsində «Liverpul» klubunun misirli hücumçusu Məhəmməd Salahı və hazırda İtaliyanın «Yuventus» komandasında forma geyinən portuqaliyalı forvard Kriştianu Ronaldunu qabaqlayıb.

# Gənc güləşçilərimiz dünya çempionatında...



Slovakiyanın Trnava şəhərində başa çatan gənc güləşçilərin dünya çempionatında sərbəst güləş üzrə yığmaların sıralaması müəyyənləşib. Çempionatda iştirak edən Azərbaycan millimiz 91 xal toplayaraq komanda hesabında 4-cü yeri tutub.

Böyük məşqçi Saypulla Absaidov və məşqçi Rövşən Hacıyevin rəhbərliyi altında mundiala 10 güləşçi ilə yollanan yığmamız 4 medal qazanıb. Hacımurad Hacıyev (70 kq) qızıl, Abubakr Abakarov (74 kq) gümüş, Orxan Abasov (79 kq) və Asxab Həmzətov (92 kq) isə bürünc medal əldə ediblər. Qeyd edək ki, dünya çempionatında Rusiya (182) birinci, ABŞ (115) ikinci, İran (98) isə üçüncü yeri tutublar.

# Milli komandamız qələbə seriyasını davam etdirir



İtaliyanın Siena şəhərində start götürmüş polo üzrə Avropa çempionatının üçüncü turunda Azərbaycan millisi Slovakiya yığması ilə qarşılaşıb. Rəqibini 11:7 hesabı ilə məğlub edən komandamız dalbadal üç oyunluq qələbə ilə yarışın favoritləri sırasında yer alıb. Yığmamızın heyətində Tərlan Qurbanəliyev və Əli Rzayev xüsusilə fərqləniblər. Sentyabrın 28-də Azərbaycan millisi hazırkı Avropa çempionu İrlandiya komandası ilə qarşılaşacaq.

Qeyd edək ki, Azərbaycan milli komandası Avropa çempionatının ilk turunda Niderland seçməsini (7:3), ikinci turda isə Fransa millisini (8:4) məğlub edib. Beynəlxalq Polo Federasiyası və İtaliyanın Atçılıq İdmanı Federasiyası tərəfindən birgə təşkil edilən Polo üzrə Avropa Çempionatı sentyabrın 30-dək davam edəcək. Keçiriləcək 4 oyunun nəticəsinə əsasən ən çox xal toplayan komanda finalda digər qrupun qalibi ilə qarşılaşacaq.

mozaika

kainat




ABŞ-ın Florida ştatındakı Kanaveral burnunda yerləşən kosmodromdan beş ay əvvəl fəzaya göndərilmiş planet axtaran orbital teleskop Günəş sisteminin xaricində iki yeni planet kəşf edib.

ABŞ-ın Milli Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyinin (NASA) tranzit planet kəşfiyyatçı teleskopu (TESS) hər biri Günəş sistemindən 49 və 60 işıq ili uzaqlıqda «Qızmar Yer» və «Super Yer» planetlərini kəşf edib. Bundan başqa, 337 milyon dollar vəsait xərclənmiş TESS Yerin ətrafındakı ulduzlar arasında cırtdan planetləri də aşkar edib.

Layihənin elmi direktorunun müavini Sara Siger jurnalistlərə bildirib ki, astronomlardan ibarət qrup TESS-dən yeni kəşflər gözləyir. Onun sözlərinə görə, gecənin qaranlığında səmada işıq saçan minlərlə göy cisminin öyrənilməsinə ehtiyac var. TESS-in sələfi olmuş «Kepler» teleskopu son 20 il ərzində 3700 cırtdan planet kəşf edib və yanacağı bitdikdən sonra sıradan çıxıb. NASA-nın yeni proqramına Yerin ölçüsünə yaxın və daha böyük planetlərin aşkar edilməsi, onlarda həyat ehtimalının olması üzrə tədqiqatlar daxil edilib. Alimlər TESS-in sayəsində 100-dən çox qayalıq səthi olan kiçik planetin kataloqunun hazırlanacağına ümid edirlər.

Yeni kəşf olunmuş «Super Yer» planeti Günəş sistemindən 60 işıq ili uzaqda olmaqla hər 6,3 gündən bir onun orbitinə yaxınlaşır. Günəş sistemindən 60 işıq ili uzaqda olan «Qızmar Yer» planeti isə hər 11 saatdan bir orbitin yaxınlığından keçir. NASA-nın TESS üzrə proqram tədqiqatçısı olan Martin Spill hesab edir ki, bu planetlərin səthində su ola bilər. Onun sözlərinə görə, astronomlar kəşf olunan yeni planetlər üzərində geniş tədqiqatlar aparacaqlar.

cəmiyyət

## Robot texnikası yeni iş yerləri yaradır



Dünya İqtisadi Forumunun yeni hesabatında göstərilir ki, 2025-ci ilədək robotlar işlərin əksər hissəsini (51 faiz) yerinə yetirəcəklər. Robot texnikası 58 milyon yeni iş yeri yaradacaq.

Böyük şirkətlərdə çalışan əməkdaşların 54 faizi peşəsini dəyişmək və ya bacarıq səviyyəsini artırmaq məcburiyyətində qalacaq. Hesabata görə, gələcəkdə operator, mühasib, inzibatçı, katib, quraşdırma müəssisələri işçisi, auditor, poçt xidmətləri əməkdaşı, sifarişçilərlə iş üzrə xidmət operatoru, anbar uçotu operatorları və s. kimi peşələrə tələbat azalacaq. Yeni peşələr isə məlumat analitiki, süni intellekt və robotların öyrədilməsi üzrə mütəxəssis, proqram təminatı tərtibatçısı, satış və marketinq üzrə mütəxəssis, iritutumlu məlumatlarla iş üzrə, rəqəmli texnologiyalara keçid üzrə və yeni texnologiyalar üzrə mütəxəssis və sair olacaq.

tapıntı

## Nadir qızıl külçələr



Mədənçilər Avstraliyanın qərbində tərkibində böyük miqdarda qızılın olduğu iki böyük daş parçası aşkar ediblər. Daşlardan hər birinin bir neçə milyon dollar dəyərində olduğu bildirilir. «RNC Minerals» mədən şirkətinin məlumatına görə, 95 kiloqram ağırlığında olan birinci daş parçasında təqribən 2400 unsiya (70 kiloqramdan çox) qızıl var. Kalqurli yaxınlığında yerləşən həmin mədəndən ötən həftə təxminən 11 milyon dollar dəyərində qızıl çıxarılıb. Lakin şaxtaçıların son tapıntıları çox nadir hesab edilir.

Qızılaxtaranların qənaətinə görə, böyük daşın təqribi qiyməti 3 milyon dollar, 63 kiloqram (təxminən 1600 unsiya qızıl) ağırlığında olan ikinci daşın qiyməti isə 1,9 milyon dollardır.

Avstraliyanın Kertin Dağ-Mədən Universitetinin professoru Sem Spirinq bildirib ki, adətən avstraliyalı şaxtaçılar bir ton qayadan təqribən 2 kiloqram qızıl əldə edirlər.

«Belə tapıntılara çox nadir hallarda rast gəlmək olar. Bu, fenomenal və heyranedici tapıntıdır», - deyə professor vurğulayıb.

maraqlı

## Qeyri-adi rekord...

Yaponiyanın şimalında yerləşən Yamaqata şəhərində hər il təşkil edilən «İmoni-kay» festivalında qeyri-adi dünya rekordu qeydə alınıb.

Festivalda səkkiz saat ərzində ən böyük həcmdə «imoni» şorbası hazırlanıb.

Ənənəvi olaraq payızda təşkil edilən festival zamanı şorbanı hazırlamaq üçün 3 ton karo bitkisinin kökü, 1,2 ton mal əti və digər inqridientlər soya sousunun və şəkərin əlavə edildiyi nəhəng qazana yerləşdirilib. Şorbanı qarışdırmaq və götürmək üçün ekskavatorun təknəsindən istifadə edilib. Tədbirin təşkilatçıları 4 saat yarım ərzində bura toplaşanlara 12695 qab şorba paylayıblar.

Ginnesin «Rekordlar kitabı» səkkiz saat ərzində hazırlanmış ən böyük şorba porsunu rekord kimi qeydə alıb.

texnologiya

## Süni intellekt şirkətlərinin sayı açıqlanıb



Sinxua Universitetinin nəzdində fəaliyyət göstərən Çin elm və texnologiyalar sahəsi üzrə siyasət institutu tərəfindən hazırlanan hesabata görə, Çinin materik hissəsində 1011 süni intellekt şirkəti var. Bu göstərici dünya süni intellekt şirkətlərinin sayının 20,53 faizinə bərabərdir.

Çin süni intellekt şirkətlərinin sayına görə yalnız ABŞ-dan geri qalır. Orada belə şirkətlərin sayı iki minə çatır. Liderlər beşliyinə, həmçinin, Böyük Britaniya, Kanada və Hindistan daxildir. ABŞ süni intellekt şirkətlərinin sayına görə Çini üstələsə də, süni intellekt üzərində çalışan şirkətlərin əksəriyyəti (395) Pekində yerləşir. Liderlər üçlüyündə, müvafiq olaraq, 287 və 274 süni intellekt şirkəti ilə ABŞ-ın San-Fransisko və Britaniyanın London şəhərləri yer alıb. Bundan başqa, Şanxay, Şençjen və Xançjou süni intellekt şirkəti çox olan şəhərlərin ilk iyirmiliyində qərarlaşıb.

**Müdriklər deyib ki...**

***«Kiçik işlərə çox əhəmiyyət verənlər – əllərindən böyük işlər gəlməyənlərdir»***

***Aristotel***

